


LAYİHƏ

## Göyçayda bir gün: Nar bayramı

SƏH. 3



VERGİ

## Vergilər Nazirliyi: Ən çətin dövr arxada qaldı

SƏH. 5


iqtisadi qüdrətimiz naminə!

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 46 (890)
20 - 26 noyabr
2015-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır


# "G20"-nin Antalya Sammitində qəbul edilmiş qərarlar qlobal problemləri həll edən birgə fəaliyyətə dəstək olacaq

**Noyabrın 15-də Türkiyənin Antalya şəhərində "Böyük İyirmilik" ölkələri liderlərinin Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Böyük İyirmiliyin" (G20) Antalya şəhərində keçirilən Sammitində iştirak etmək üçün noyabrın 14-də Türkiyə Respublikasına gəlmişlər.**




"Böyük İyirmilik" ölkələri liderlərinin Sammitində iştirak etmək üçün Antalyaya 13 min nümayəndə gəlmişdi. İki gün davam edəcək Sammit çərçivəsində yeddi böyük toplantı keçirilmişdir. Sammitin gündəliyinə qlobal iqtisadiyyat məsələləri ilə yanaşı, terrorçuluğa qarşı mübarizə, qaçqın problemi kimi aktual mövzular da daxil idi.

Sayca onuncu dəfə keçirilən bu Sammitdə Azərbaycan xüsusi dəvətli qonaq statusunda təmsil olunurdu. Türkiyənin fəxri qonaq qismində Azərbaycanı seçməsi ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinin bir daha təsdiqi olmaqla yanaşı, Azərbaycanın iqtisadi potensialına verilən önəmin göstəricisidir. Qlobal iqtisadiyyata töhfə verəcək, Cənub-Şərqi Asiya regionundan Avropaya qədər geniş bir ərazini əhatə edən iki böyük layihənin - Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin və TACIS proqramının təşəbbüskarı və iştirakçısı kimi Azərbaycanın bu Sammitdə iştirakına böyük əhəmiyyət verilir. Çünki Azərbaycan güclü iqtisadi potensiala malik ölkə və sabitlik adası kimi Qərbin, ümumiyyətlə, dünyanın diqqət mərkəzindədir. Etibarlı tərəfdaş kimi Azərbaycan regionla yanaşı, dünya iqtisadiyyatına da böyük töhfələr verir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan demişdir ki, Fransa paytaxtında baş verən terror hadisəsi iqtisadiyyat və təhlükəsizlik arasındakı əlaqənin bir-biri ilə sıx bağlı olduğunu göstərir. Son illər Suriyada, bu ilin son dörd ayında Türkiyədə, daha sonra Parisdə törədilən terror aktları göstərdi ki, terrorizm bütün dünyada sülh və təhlükəsizliyə təhdid olmaqda davam edir. Terrorla mübarizədə qəti addımlar atılmalıdır və bu baxımdan Antalya Sammiti xüsusi əhəmiyyət daşıyır.

Türkiyə Prezidenti bildirmişdir ki, "Böyük İyirmiliyin" diqqət mərkəzində əsasən iqtisadiyyat, siyasət, sosial məsələlər olsa da, insan amili məsələsini bunlardan ayırmaq düzgün deyil. Son hadisələr bir daha göstərir ki, dünyada sülhün bərqərar olması üçün əməkdaşlığı gücləndirməliyik.

* * *

Noyabrın 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından "Böyük İyirmiliyin" Sammitində iştirak edən dövlət və hökumət başçılarının, beynəlxalq təşkilatların rəhbərlərinin şərəfinə verilən işçi naharda terrorizmə qarşı mübarizə və qaçqınlar böhranı mövzusunda müzakirələr aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müzakirələrdə çıxış edib.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan beynəlxalq terrorizmlə mübarizədə fəal iştirak edir, Əfqanıstanda koalisiya qüvvələrinin işinə qoşulan ilk ölkələrdən biri olub.

Prezident İlham Əliyev, eyni zamanda, qeyd edib ki, Azərbaycan özü terrorizmdən əziyyət çəkən ölkələrdəndir və bu terrorizm Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinin tərkib hissəsidir. Ermənistan terror təşkilatı tərəfindən Azərbaycanda törədilən terror aktları nəticəsində iki mindən çox Azərbaycan vətəndaşı həlak olub.

Azərbaycan torpaqlarının işğalı məsələsinə toxunan Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizi zəbt olunub. Azərbaycana qarşı etnik təmizləmə siyasəti həyata keçirilib. İşğal nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib, bir milyona yaxın soydaşımız öz doğma torpaqlarından didərgin düşüb. BMT Təhlükəsizlik Şurasının 20 ildən çoxdur ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan tərəfi indiyədək buna məhəl qoymur. Prezident İlham Əliyev dövlət başçılarının diqqətini dünyanın bir nömrəli beynəlxalq təşkilatının qəbul etdiyi qərarlara Ermənistan tərəfindən əməl olunmaması faktına cəlb edib.

Dövlətimizin başçısı xüsusi olaraq vurğulayıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü əsasında həll olunmalıdır.

SƏH. 2


**Bioloji Təbabət Klinikası**
**Almaniya - Azərbaycan**




Üstünlükləri:

- Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

MÜAYİNƏLƏR:

- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikası və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

MÜALİCƏLƏR:

- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir aparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

"BiolojiTəbabət"klinikası
**Ünvan:** 3-cü mkr. Pişəvari küç., 110
("Memar Əcəmi" metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) (050) / (055) **430 89 89**
e-mail:bioklinik@biolojitababat.az


# Ə.Həsənov: "Yalan məlumatlar yayan KİV və jurnalistlər haqqında ölçü götürüləcək"



"Bəzi hallarda aparıcı KİV də dezinformasiyaları tirajlayaraq öz oxucularını çaşdırır:

"Qanuna zidd fəaliyyət göstərən, yalan məlumatlar yayan, cəmiyyətdə çaşqınlıq yaradan KİV və jurnalistlər haqqında müvafiq hüquqi ölçü götürüləcək".

APA-nın məlumatına görə, bunu "Azərtac"a açıqlamasında Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov son zamanlar kütləvi informasiya vasitələrində sui-istifadə hallarının artmasını şərh edərkən deyib.

Azərbaycanda söz və məlumat azadlığının, hər kəsin, o cümlədən kütləvi informasiya vasitələrinin, jurnalistlərin sərbəst şəkildə informasiya əldə etmək, hazırlamaq və yaymaq hüququnun tam təmin edildiyini deyən Ə.Həsənov qeyd edib ki, KİV Azərbaycanın daxili və xarici siyasəti, cəmiyyət həyatının müxtəlif sahələri, habelə dünyada baş verən mühüm hadisələr haqqında çoxsaylı məlumatlar, müxtəlif şərh və təhlillər hazırlayır və ictimai rəyə təqdim edirlər. O bildirib ki, söz və məlumat azadlığı Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun mühüm tərkib hissəsidir və qarşıdan gələn dövrdə də Azərbaycan dövləti KİV-in müstəqilliyinin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcək.

"Bununla yanaşı, təəssüflə qeyd etmək lazım gəlir ki, KİV-in sərbəst fəaliyyəti üçün yaradılmış əlverişli şəraitdən son zamanlar sui-istifadə halları artıb. Xüsusilə internet media orqanlarında müxtəlif dövlət strukturları, onların rəhbərləri və əməkdaşları haqqında həqiqətə uyğun olmayan, əsassız, qərəzli, hətta şantaj xarakterli çoxsaylı məlumatlar yayılır. Vəzifəli şəxslərin guya işdən "kənarlaşdırılması", rəhbərlik etdikləri qurumlarda "yoxlamalar", evlərində "axtarışlar" aparılması, məmurların "həbsi", vəzifələrindən uzaqlaşdırılmış bəzi dövlət qurumlarının rəhbərləri ilə "əməkdaşlığı" və s. bu tipli qərəzli məlumatlar məqsədli şəkildə dövriyyəyə buraxılır. Əminliklə demək olar ki, belə məlumatlar yayan KİV bununla öz tirajlarını artırmağa və mənfəət əldə etməyə çalışır", - deyə o vurğulayıb.

Ə.Həsənov bildirib ki, bu tipli fəaliyyət qanuna ziddir və birbaşa hüquqi məsuliyyət doğurur: "Təəssüf ki, bəzi hallarda aparıcı KİV də belə dezinformasiyaları tirajlayaraq öz oxucularını çaşdırır. Sosial şəbəkələrdə və məqsədli şəkildə fəaliyyət göstərən internet saytlarında yerləşdirilmiş yalan məlumatlar yoxlanılmadan, həqiqiliyi araşdırılmadan həmin ciddi media orqanlarının səhifələrinə yerləşdirilir. Nəzərə almaq lazımdır ki, mövcud hal dövlət orqanlarının nüfuzuna xələl gətirir, onların iş rejiminin pozulmasına, cəmiyyətdə çaşqınlıq yaranmasına səbəb olur və ümumilikdə, Azərbaycan dövlətinin imicinə mənfi təsir göstərir. Hesab edirik ki, Azərbaycan KİV-i, jurnalistlər daim məsuliyyətli olmalı, mövcud qanunvericiliyin tələblərinə əməl etməli, KİV-in sərbəst fəaliyyəti üçün yaradılmış əlverişli şəraitdən sui-istifadə hallarına yol verməməlidir. Jurnalist birlikləri, xüsusilə Mətbuat Şurası hazırda müşahidə olunan mənfi meyillərin aradan qaldırılması istiqamətində əməli tədbirlər görməlidir. Əks-təqdirdə qanuna zidd fəaliyyət göstərən, yalan məlumatlar yayan, cəmiyyətdə çaşqınlıq yaradan KİV və jurnalistlər haqqında müvafiq hüquqi ölçü götürüləcək".

# "G20"-nin Antalya Sammitində qəbul edilmiş qərarlar qlobal problemləri həll edən birgə fəaliyyətə dəstək olacaq




*(əvvəli 1-ci səhifədə)*

Noyabrın 15-16-da Türkiyənin Antalya şəhərində keçirilən "Böyük İyirmiliyin" (G20) üzvü olan dövlət və hökumət başçılarının Sammiti ilə bağlı xüsusi nəşr buraxılıb. Xüsusi nəşrdə Sammitdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Ümumi strategiyanın formalaşdırılması" məqaləsi dərc olunub. Məqalə "G20"-nin saytında da verilib.

* * *

Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Böyük İyirmiliyin" (G-20) Antalya Sammiti çərçivəsində keçirilən işçi lançda çıxış edib.

Dövlətimizin başçısı çıxışında Azərbaycan ilə Türkiyə arasında yüksək səviyyəli əlaqələrin inkişaf etdiyini vurğulayaraq, Türkiyənin Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olduğunu xatırlatdı. Ölkələrimiz arasında energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirən Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyənin birgə reallaşdırdıqları mühüm energetika və digər layihələrin yalnız regionda deyil, dünya miqyasında da böyük əhəmiyyətə malik olduğunu dedi. Bu baxımdan "Cənub" qaz dəhlizi layihəsinin Avropanın enerji təhlükəsizliyinin təmin olunması işində önəmini vurğulayaraq, həmin layihənin həyata keçirilməsində əlaqələndirmənin gücləndirilməsinin əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın energetika sahəsində əldə etdiyi uğurlara toxundu. Ölkəmizin neft hasilatı sahəsində böyük tarixə və təcrübəyə malik olduğunu söyləyən dövlətimizin başçısı dünyada ilk dəfə sənaye üsulu ilə dənizdə neftin Azərbaycanda çıxarıldığını bildirdi.

Azərbaycan Prezidenti müstəqillik dövründə həyata keçirilən enerji layihələri, xüsusilə 1994-cü ildə imzalanan "Əsrin Müqaviləsi" və bu müqavilənin dünyanın enerji xəritəsində tutduğu mühüm yer, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri haqqında da danışdı. Prezident İlham Əliyev vurğuladı ki, həmin illərdən ötən dövr ərzində Azərbaycanın energetika sahəsində beynəlxalq əməkdaşlığı daha da genişlənib və bu gün də uğurla davam edir.

* * *

"Böyük İyirmiliyin" Sammiti çərçivəsində Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, ABŞ Prezidenti Barak Obama, Rusiya Prezidenti Vladimir Putin, Böyük Britaniyanın Baş naziri Devid Kemeron, Almaniya Kansleri Angela Merkel, İtaliyanın Baş naziri Matteo Renzi, Malayziyanın Baş naziri Nacib Rezak, Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə ikitərəfli münasibətlərin inkişafına dair qısa söhbətləri olub.

"Böyük iyirmiliyin" Antalya Sammitində Azərbaycanın təmsil olunması, dövlətimizin başçısının dünya liderləri ilə birlikdə müasir dövrün ən aktual məsələlərinin müzakirələrində yaxından iştirak etməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunun getdikcə artmasını sübut edən daha bir amildir. Bu, həm də dünya miqyasında Azərbaycana verilən önəmin daha bir nümunəsidir.




# Azərbaycan UNESCO-nun fəal üzvü kimi bəşəri dəyərlərin təşviqinə öz töhfəsini verməkdə davam edir

Bu il UNESCO-nun Nizamnaməsinin qəbulundan 70 il ötür. Təşkilatın yaradılmasının 70 illiyi münasibətilə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Noyabrın 17-də Parisdə UNESCO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Forumda iştirak ediblər.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın UNESCO-nun sabiq baş direktoru Koişiro Matsuura ilə qısa söhbətləri olmuşdur.

UNESCO Baş Konfransının 38-ci sessiyasının sədri, Namibiyanın informasiya və kommunikasiya texnologiyaları nazirinin müavini Stanley Mutumba Simataa tədbiri açaraq Forumun gündəliyi barədə məlumat vermişdir.

Prezident İlham Əliyev Forumda çıxış etmişdir.

Dövlətimizin başçısı əvvəlcə noyabrın 13-də Parisdə baş vermiş dəhşətli terror hadisəsi ilə bağlı Azərbaycan xalqı adından Fransa xalqına başsağlığı vermiş, bildirmişdir ki, bu dəhşətli terror hadisəsi beynəlxalq ictimaiyyətin bu bəla ilə mübarizə aparmaq üçün öz səylərini birləşdirməli olduğunu bir daha göstərir. Prezident İlham Əliyev keçmişdə çoxsaylı terror hadisələrindən əziyyət çəkən Azərbaycanın terrorizmə qarşı mübarizədəki rolundan danışmışdır.

Azərbaycan-UNESCO əlaqələrinə toxunan Prezident İlham Əliyev ölkəmizin bu təşkilatın fəal üzvü kimi bəşəri dəyərlərin təşviqinə öz töhfəsini verməkdə davam etdiyini dedi. Bildirdi ki, Azərbaycan UNESCO-nun bütün konvensiyalarını və digər sənədlərini imzalayıb, ratifikasiya edib. 2003-cü ildə Azərbaycan və UNESCO arasında mədəniyyət, elm, təhsil və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi imzalanıb. Bu, Azərbaycana UNESCO-nun donorlarından birinə çevrilmək imkanı verib. Prezident İlham Əliyev əminliklə vurğuladı ki, UNESCO-nun təhsil, mədəniyyət və elm sahələrinin inkişafına verdiyi dəstək dünyamızı daha da təhlükəsiz edəcək.

Dövlətimizin başçısı demişdir ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin Ermənistan tərəfindən işğalı bu günə kimi davam edir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Çoxlu sayda tarixi abidələrimiz, muzeylərimiz ermənilər tərəfindən tamamilə dağıdılıb. Prezident İlham Əliyev Ermənistanın nəinki beynəlxalq hüquq normalarını, həm də tarixi ədaləti pozduğunu, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qətnamələrə məhəl qoymadığını vurğuladı. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir", - deyən Prezident İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyinə əminliyini bildirmişdir.




Forumdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva UNESCO-nun baş direktoru İrina Bokova ilə görüşmüşlər.

Söhbət zamanı Azərbaycanın UNESCO-nun fəaliyyətində rolu, bu təşkilatın işinə verdiyi töhfə yüksək qiymətləndirilmişdir. Həmçinin Azərbaycanda multikulturalizmin inkişafı, ölkəmizin mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə verdiyi töhfələr diqqətə çatdırıldı. UNESCO-nun xətti ilə Azərbaycanda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyəti qeyd edilmişdir.

Görüşdə əməkdaşlığımızın bundan sonra da genişləndirilməsinə əminlik ifadə olunmuş və bu əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

# Azərbaycan iqtisadiyyatı artdı




2015-ci ilin yanvar-oktyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən 45,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 3,3 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir.

Dövlət Statistika Komitəsinin yayığı məlumata görə, əlavə dəyərin 33,8 faizi sənayedə, 13,8 faizi tikintidə, 9,8 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,0 faizi informasiya və rabitə, 18,9 faizi isə digər sahələrdə istehsal edilmişdir.

**ADAMBAŞINA 4825 MANATLIQ MƏHSUL İSTEHSAL OLUNUB**

Məhsula və idxala xalis vergilər ÜDM-in 7,6 faizini təşkil etmişdir. Ümumi daxili məhsulun əhalinin hər nəfərinə düşən həcmi 2,1 faiz artaraq 4825,3 manata bərabər olmuşdur.

# "Bu pullar iqtisadiyyata xidmət etmir"



**Mərkəzi Bankın sədri Elman Rüstəmov dollarlaşma prosesi və dövriyyədə pul kütləsinin azalması mövzularından danışıb.**

"Xatırlayırsınızsa, təxminən 10 il əvvəl manatın kursu ancaq yüksəlirdi. O qədər yüksəlmişdi ki, əhalinin dollara marağı itmişdi.

Mərkəzi Bank isə valyuta bazarına fəal intervensiya həyata keçirərək çalışırdı ki, milli valyutanın kursu hansısa ağlabatan həddi aşıb keçməsin. Əhali pullarını manatla saxlayırdı, dolları və digər valyutaları az qala yaddan çıxarmışdı. Ölkədə dedollarizasiya prosesi gedirdi".

Bu sözləri Mərkəzi Bankın sədri Elman Rüstəmov deyib.

Mərkəzi Bankın rəhbəri bildirib ki, fevral devalvasiyasından sonra əks proses - dollarlaşma başladı. Manata maraq azaldı, həm fiziki, həm də hüquqi şəxslər öz vəsaitlərini əsasən dollara çevirdilər.

Nəticədə isə dövriyyədən əhəmiyyətli miqdarda manat kütləsi çıxır və Mərkəzi Bankın anbarlarına yığılır.

E.Rüstəmov deyir ki, anbarlarda saxlanılan əsginasların qiyməti yalnız onun çapına sərf olunmuş vəsaitlə - qəpiyin hansısa hissəsi ilə ölçülür. Hərçənd ki, bu pullar dövriyyədə olsa iqtisadiyyata özünün nominal dəyəri həcmində fayda verə bilərdi. Bu isə milyardlarla manat deməkdir.

Elman Rüstəmovun sözlərinə görə, son bir ildə dollarla saxlanılan əmanətlərin və yığımların həcmi hər ay artır. Əgər ötən ilin yekunlarına görə, dollarla olan əmanətlərin və yığımların həcmi 6 faiz artmışdısa, təkcə bu ilin 9 ayında həmin pul kütləsinin az qala yarısı dövriyyədən çıxıb və anbarlarda öz saatını gözləməkdədir. Ölkədə əmanətlərin dollarlaşması səviyyəsi isə 75 faizi keçib.

Mərkəzi Bank rəhbəri manat kütləsinin iqtisadiyyatın tələbatını tam ödədiyini deyib. O, ÜDM-in artdığı bir vaxtda manat kütləsinin niyə azaldığı haqda suallara cavab olaraq bildirib ki, Mərkəzi Bankın statistikasında ÜDM-in real artımından yox, nominal artımından bəhs edilmişdi. Çünki bu cür statistikalarda ÜDM-in nominal dəyəri əsas götürülür.

E.Rüstəmov dövriyyədəki pul kütləsinin azalmasının səbəblərini izah edərək deyib ki, azərbaycanlılar həmişə sanballı miqdarda nağd pul saxlamağı xoşlayıblar. Yəni, insanlar bank sektoruna və kredit kartlarına o qədər də etibar etmirlər.

"Təsəvvür etmək çətindir ki, hansısa amerikalı cibində 10-20 dollardan artıq nağd pul saxlayar. Xırda kupyurlar ona çaypulu verməyə lazımdır, bütün qalan ödənişlərini isə bank kartı ilə həyata keçirir. Ona görə də pullar həmişə dövriyyədədir. Azərbaycanda isə yaxşı qazancı olan istənilən şəxsin cibində yəqin ki, azı bir neçə yüz manat tapmaq olar. Üstəlik daha bir neçə min dolları da hər ehtimala qarşı evində saxlayır",- baş bankir deyir.

E.Rüstəmovun bildirdiyinə görə, azərbaycanlılar hazırda 50 və 100 manatlıq kupyurları da kütləvi şəkildə yığıb saxlayırlar. Bu kupyurların sayı dövriyyədə ilin əvvəlindən iki dəfə azalıb. Ölkə miqyasında isə bu, milyardlarla manat deməkdir. Həmin pullar banklarda saxlanılmayıb, dövriyyədən çıxarılıb və nəticədə Mərkəzi Bankın hesabladığı pul kütləsinə daxil deyil.

"Əhalinin əksər hissəsi öz pullarını banklarda yox, evdə, yastığın altında saxlamağa üstünlük verir. İnsanlar dollar almağa milyardlarla manat xərcləyir və sonra valyutanı yastığın altına qoyurlar. Bu dollar kütləsi iqtisadiyyata heç cür xidmət etmir, eynilə Mərkəzi Bankın anbarlarına yığılan manat kütləsi kimi", - deyə E.Rüstəmov vəziyyəti izah edir.

Mərkəzi Bank rəhbəri ölkədə dollarlaşmanı azaltmaq üçün tədbirlər görüldüyünü bildirib. Məsələn, daşınmaz əmlakın alqı-satqısı əvvəl dollarla aparılırdısa, indi manata keçirilib.

Hərçənd ki, bəzən tərəflərin vergidən qaçmaq üçün öz aralarında xəlvəti sövdələşmə etməsi istisna deyil. Həmçinin avtomobil bazarında dedollarizasiyanı azaltmağa imkanlar var.

Etibarnamə ilə maşın idarə edənlərə qarşı tələblər sərtləşir və nəticədə qeyri-leqal avtomobil bazarı leqallaşır. Monetar və fiskal nəzarət gücləndirilir, kölgə iqtisadiyyatına qarşı mübarizə aparılır. Və bütün bu tədbirlər öz nəticəsini verməkdədir.

Həmçinin, iqtisadiyyatın pul kütləsinə olan tələbatı ödənilir. Mərkəzi Bank bir sıra iri layihələri dolayısı yolla maliyyələşdirməklə monetar siyasətini genişləndirir. Bu isə likvidliyin artmasına imkan yaradır.

"Biz ilin sonuna qədər Beynəlxalq Banka 3 milyard manatın ayrılmasını başa çatdıracağıq. Bu vəsaitin 2 milyard manatı artıq banka daxil olub. SOCAR-a ölkənin qazlaşdırılmasını başa çatdırmaq üçün 0,5 milyard manat ayrılıb. Biz bankların rezerv normalarını da aşağı salmışıq, bu da pul kütləsinin artmasına təsir edəcək", - deyə Elman Rüstəmov bildirib.

# İnternet şəbəkəsində problemin yaranmasına baxmayaraq, ölkədə fəaliyyət göstərən banklar arasında hesablaşmaların fasiləsizliyi və davamlılığı təmin edilmişdir

Bir sıra kütləvi informasiya vasitələrində 16 noyabr 2015-ci il tarixində ölkənin internet şəbəkəsində baş verən problemin banklararası hesablaşmalara təsir etməsi ilə bağlı informasiya yayılmışdır.

Mərkəzi Bank olaraq bildiririk ki, ölkədə qabaqcıl texnologiya və proqram təminatlarına əsaslanan arxitekturaya malik Milli Ödəniş Sistemi infrastrukturu qurulmuşdur. Ödəniş sistemlərinin sabit, etibarlı və təhlükəsiz fəaliyyətinin təşkil edilməsi istiqamətində aparılan islahatlar nəticəsində beynəlxalq infrastrukturlardan asılılıq minimuma endirilmiş, yəni Mərkəzi Bank tərəfindən vaxtında alternativ ödəniş infrastrukturu olaraq banklararası hesablaşmaların beynəlxalq infrastrukturlarla yanaşı, yaradılmış lokal telekommunikasiya şəbəkəsi üzərindən də fəaliyyət göstərməsi təmin edilmişdir.

Bunun nəticəsidir ki, internet şəbəkəsində problemin yaranmasına və bankların SWIFT platformasına çıxış imkanının məhdudlaşmasına baxmayaraq, lokal telekommunikasiya şəbəkəsi üzərində fəaliyyət göstərən Milli Ödəniş Sistemi, o cümlədən Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi və Xırda Ödənişlər üzrə Hesablaşma və Kliring Sistemi sabit və davamlı fəaliyyətini davam etdirmiş, banklar arasında milli valyutada aparılan hesablaşmaların fasiləsiz və təhlükəsiz formada həyata keçirilməsi tam təmin edilmişdir.

# Gilan valisi: Azərbaycan yüksək iqtisadi artıma nail olub

İqtisadiyyat və sənaye naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev İran İslam Respublikasının Gilan vilayətinin valisi Məhəmmədəli Nəcəfinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, görüşdə Ş.Mustafayev ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişaf etdiyini, 2014-cü ildə dövlət başçılarının qarşılıqlı rəsmi səfərlərindən və keçirilən görüşlərdən sonra Azərbaycan-İran əlaqələrinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb. Son zamanlar intensivləşən qarşılıqlı səfərlərin ölkələrimiz arasında əməkdaşlığın genişlənməsində əhəmiyyəti qeyd olunub, bu ilin oktyabrında Azərbaycanın və İranın Astara şəhərlərində keçirilmiş görüşlər zamanı Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı dəmir yolu xətlərinin əlaqələndirilməsinə və digər məsələlərə dair razılıqların əldə olunduğu bildirilib.

Qeyd edilib ki, Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyətinin təkmilləşdirilməsi tranzit imkanlarının genişlənməsinə, ölkələrimiz arasında, o cümlədən Gilan vilayəti ilə əlaqələrin inkişafına öz töhfəsini verəcək. İran nümayəndə heyətinin ölkəmizə növbəti səfəri çərçivəsində Azərbaycan-İran biznes forumunun keçirilməsi və Bakıda İran İslam Respublikasının ixtisaslaşmış sərgisinin açılması iqtisadi-ticarət əlaqələrinin inkişafında əhəmiyyətli olacaq.

Ölkələrimiz arasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın uğurla davam etdiyini qeyd edən Ş.Mustafayev Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi layihəsi üzrə I mərhələnin 2016-cı ilin sonunda başa çatdırılmasının nəzərdə tutulduğunu, qarşılıqlı razılaşmaya əsasən, Biləsuvar və Astara sərhəd-keçid məntəqələrinin 24 saat fasiləsiz iş rejiminə keçiriləcəyini vurğulayıb. Həmçinin bildirilib ki, Qazaxıstanın Aktau şəhərində inşa olunan logistik mərkəzdən İran tərəfi də istifadə edə bilər.

İran İslam Respublikasının Gilan vilayətinin valisi M.Nəcəfi region ölkələri ilə müqayisədə Azərbaycanın yüksək iqtisadi artıma nail olduğunu vurğulayıb, dünən Bakıda İran İslam Respublikasının ixtisaslaşmış sərgisinin təşkilinə göstərdiyi dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlıq edib. Ölkələrimiz arasında həyata keçirilən çoxsaylı qarşılıqlı rəsmi səfərlərin müsbət nəticələr verdiyini qeyd edən M.Nəcəfi əlaqələrin genişlənməsi üçün qısa müddət ərzində bir sıra işlərin görüldüyünü diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi iqtisadi əməkdaşlığın, xüsusilə yükdaşımalar, turizm və ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərəcək. O, qeyd edib ki, Ənzəli limanı və Gilanda yerləşən Azad Ticarət və Sənaye Zonası Azərbaycan və İran tərəfindən üçüncü ölkələrə kənd təsərrüfatı məhsullarının ixracına geniş imkanlar yaradır.

Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının növbəti – 10-cu iclasının bu ilin dekabrında İranda keçiriləcəyi qeyd edilib, iclasda müzakirəsi nəzərdə tutulan məsələlər barədə fikir mübadiləsi aparılıb.

# ABŞ səfiri: Məqsədimiz güclü Azərbaycan qurmağa kömək etməkdir



Amerika Birləşmiş Ştatların Azərbaycanla əməkdaşlıq etdiyi 3 əsas sahədən biri də iqtisadiyyatdır.

Trend-in məlumatına görə, bu barədə ölkəmizin ABŞ-dakı səfiri Robert Sekuta Azərbaycanda səfərdə olan ticarət nümayəndə heyətilə öz qərargahında görüşü zamanı bildirib.

Onun sözlərinə görə, ölkələrimiz arasında olan uğurlu əməkdaşlığın ruhuna uyğun olaraq iqtisadi və ticari əlaqələri yaxşılaşdırmaq üçün 15 şirkətdən ibarət nümayəndə heyəti Azərbaycana gəlib.

“Bizim məqsədimiz azərbaycanlılarla birgə işləyərək güclü, sabit, demokratik, inkişaf edən Azərbaycan qurmağa kömək etməkdir”, - səfir bildirib.

"Bizim ticari əlaqələrimizin inkişafı yalnız ABŞ-la Azərbaycan arasında biznes fəaliyyətini deyil, həm də şəxsi əlaqələri inkişaf etdirir, bu isə ölkələrin daha da yaxınlaşmasına təkan verir. 15 il əvvəl 3 il Azərbaycanda çalışmışam. Biznesin inkişafına kömək etmək iki ölkə arasında biznes, iqtisadiyyat, investisiya münasibətlərinin inkişafı və ölkələrin gəlirlərinin artması deməkdir”,- deyərək ABŞ Ticarət Departamenti Katibinin köməkçi müavini Maykl Lalli qeyd edib.

ABŞ-dan olan 15 şirkət Azərbaycanda tərəfdaş tapmaq və burada yeni biznesin əsasını qoymaq istəyirlər, Maykl Lalli əlavə edib.

# NBC Bank mənfəətə çıxdı

2015-ci ilin 9 ayının yekunları üzrə nə mənfəət, nə də zərər edən “NBC Bank” oktyabr ayında mənfəətə çıxıb.

Bank oktyabr ayında 476 min manat xalis mənfəət əldə edib.

10 ayda Bankın cəmi gəlirləri 16 milyon 950 min manat, o cümlədən faiz gəlirləri 14 milyon 970 min manat, qeyri-faiz gəlirləri isə 1 milyon 980 min manat təşkil edib.

Bankın faiz və qeyri-faiz xərcləri 16 milyon 331 min manat olub. Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına isə 144 min manat ayrılıb. Nəticədə də, Bankın 476 min manat xalis mənfəəti yaranıb.

Xatırladaq ki, Azərbaycanın bir çox bankları kimi “NBC Bank” ASC də 2015-ci ilin birinci yarısını zərər ilə başa vurmuşdu. Bankın yarım ildə zərəri 2 milyon 352 min manat idi. Beləliklə, "NBC Bank" pis gedişatı tərsinə çevirərək zərəri aradan qaldırıb.

31 oktyabr 2015-ci il tarixində “NBC Bank”ın cəmi aktivləri 152 milyon 77 min manat, məqsədli ehtiyatlar çıxılmaqla xalis kredit portfeli 121 milyon 233 min manat, öhdəlikləri 100 milyon 729 min manat, cəmi kapitalı isə 51 milyon 348 min manat təşkil edib.

2015-ci ilin 30 iyun tarixində Bankın aktivləri 147,526 milyon manat, xalis kredit portfeli 122 milyon 929 min manat təşkil etmişdi.

**PROBLEMLİ KREDİTLƏRİ ARTIB**

30 oktyabr 2015-ci il tarixinə olan məlumata görə, “NBC Bank”ın məqsədli ehtiyatlar daxil 126 milyon 185 min manat olan kredit portfelinin təxminən 8 milyon 42 min manatının və ya 6,4%-nin ödəmə vaxtı keçib. Sentyabr ayının sonunda Bankın 128 milyon 611 min manatlıq kredit portfelinin 7 milyon 974 min manatının və ya 6,2%-nin ödəmə vaxtı keçmişdi. Bank 6 milyon 68 min manat və ya kredit portfelinin 3,92%-i nisbətində adi məqsədli ehtiyatlara malik olub.

KİVDF

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” layihəsi çərçivəsində çap olunub.***

# Göyçayda bir gün: Nar bayramı

**Azərbaycanda meyvəçiliyin inkişafında mühüm rolu olan Göyçay rayonunda bu il də ənənəvi Nar bayramı keçirildi. Artıq 10-cu dəfədir ki, təşkil olunan bu bayram rayonda narçılığın stimullaşdırılması baxımından xüsusilə əhəmiyyətlidir. Nar bayramı 2006-cı ildən başlayaraq, prezident İlham Əliyevin təşəbbüsü ilə hər il Göyçayda təşkil olunur. Biz də “İqtisadiyyat” qəzeti adından bu bayramda iştirak etdik və rayonda son 10 ildə həyata keçirilən dəyişiklikləri öz gözümüzlə görə bilmə fürsəti qazandıq.**



Göyçaya daxil olarkən ilk diqqətimizi çəkən şəhərin dəyişən və gözəlləşən mənzərəsi və bu gözəlliyə xüsusilik qatan bayram əhval-ruhiyyəsi oldu. Regionların mənzərəsini və sosial-iqtisadi həyatını son illərdə dəyişən dövlət proqramları Nar bayramının yüksək səviyyədə təşkilindən də hiss olunurdu. Ölkənin dörd bir yanından gəlmiş vətəndaşlar, həmçinin xarici qonaqlar Heydər Əliyev prospektində milli musiqilərin sədaları altında qarşılanır və onlara yerli müəssisələrin istehsalı olan nar şirələri təklif olunurdu. Qonaqlar əsasən nardan hazırlanmış müxtəlif təamlara, milli ornamentlərin nardan hazırlanmış fiqurlarına xüsusi maraq göstərirdilər. Festivalda diqqəti çəkən əsas amillərdən biri isə Nar şahzadəsinin festivala xüsusi təşrifi idi. Rayonun 30-a yaxın kəndinin nar və nar məhsullarından ibarət sərgi də Göyçayda narçılığın yüksək səviyyədə inkişafından xəbər verirdi.

Ümumiyyətlə isə, **bayramda insanların çoxluğunu, müxtəlif millətlərin nümayəndələrinin iştirakını və tanınmış şirkətlərin öz stendləri ilə çıxış etməsini Göyçaydakı inkişafın və rayona olan marağın bariz nümunəsi saysaq, heç də yanılmarıq. Festivalda imkan tapıb rayonun icra başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Ədalət Dövlətovla da söhbət etdik və Nar festivalı, meyvəçiliyin inkişafında nar məhsullarının yeri, əvvəlki illərlə müqayisədə narçılıqda mövcud olan fərqlər ilə bağlı fikirlərini aldıq. Ədalət Dövlətov həm yerli əhali, həm də xarici qonaqlar tərəfindən maraqla qarşılanan bu bayramın Azərbaycan mədəniyyəti, adət və ənənələri ilə sıx bağlı olduğunu, həmçinin bu bayramın prezident İlham Əliyevin qərarı ilə artıq 10-cu dəfədir ki, təşkilindən məmnunluq duyduğunu dilə gətirdi. Təbii sərvətlərimizdən olan narın əhəmiyyətinə diqqət çəkən Ə.Dövlətov: “Öz dadına, tamına, növlərinin sayına və keyfiyyətinə görə seçilən nar insanların sağlamlığında da öz effekti ilə seçilir. Məhz bunları nəzərə alaraq, ölkəmizdə keçirilən birinci Avropa Oyunlarının əsas simvollarından biri kimi narın seçilməsini heç də təsadüfi saymaq olmaz. Çox böyük fəxrlə qeyd edə bilərəm ki, ölkəmizdə mövcud olan nar bağlarının 20, nar ağaclarının isə 30 faizi məhz Göyçay rayonunun payına düşür”,** - deyə qeyd etdi.

Onun sözlərinə görə, Göyçayda narın 67 sortu yetişdirilir və bu məhsulun şirə və qabığından 20-dək xəstəliyin müalicəsində istifadə olunur. Rayonda bu il narçılıqda xüsusilə bol məhsul əldə edilmişdir. Cari ildə 47 min tona yaxın nar yığılması gözlənilir ki, bu da ötən ilə nisbətən 2 min ton çoxdur. Göyçayda hazırda nar bağlarının sahəsi 3920 hektardan artıqdır. Halbuki bu rəqəm 90-cı illərin əvvəllərində 251 hektar idi. Son iki ildə rayonda 110 hektar sahədə nar bağları salınıb. Hazırda yeni nar bağlarının salınması istiqamətində də tədbirlər həyata keçirilir. “Gülövşə”, “Şəndi”, “Vələs”, “Bala Mürsəl” və s. nar sortlarından əldə olunan məhsullar “AzNar” zavodunda emal olunaraq ABŞ, Kanada, Rusiya, Polşa, Almaniya, Yeni Zelandiya və başqa ölkələrə ixrac olunur. Təbii ki, burada 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan olunması ilə əlaqədar kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsini, bu sahədə ixrac potensialının artırılmasını da xüsusi qeyd etmək lazımdır.




Fürsətdən istifadə edib icra başçısının müavinindən rayonun ümumi inkişaf mənzərəsi, regionların sosial-iqtsadi inkişaf planının Göyçay rayonunda təzahürü ilə əlaqədar infomasiyalar da aldıq.

Ə.Dövlətov müasir dövrdə Azərbaycanın, demək olar ki, bütün sahələrdə özünün mövcud potensialını daha da artıraraq dünya dövlətləri ilə rəqabət etmək iqtidarında olan bir ölkəyə çevrildiyini qeyd etdi: “Təbii ki, bunlar da ulu öndər Heydər Əliyev strategiyasının uğurla həyata keçirilməsi ilə əlaqədar müxtəlif sahələrdə aparılmış köklü islahatlar və dinamik sosial-iqtisadi inkişaf nəticəsində əldə olunmuşdur”.

**“Son illərdə Azərbaycanın maliyyə imkanları artmış, ölkədə müasir tələblərə cavab verən infrastruktur layihələri həyata keçirilmiş, sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması istiqamətində ciddi tədbirlər görülmüşdür. Bu məqsədyönlü siyasətin davamı olaraq regionların hərtərəfli inkişafını təmin etmək məqsədilə Prezident İlham Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları qəbul edilmiş və uğurla icra edilməkdədir.**

Regionların iqtisadi inkişafında mühüm rol oynayan, sahibkarlıq fəaliyyətinin genişlənməsi və makroiqtisadi sabitliyin təmin olunmasında, yeni iş yerləri və müəssisələrin açılmasında, iri infrastruktur layihələrinin həyata keçirilməsi və yoxsulluq səviyyəsinin aşağı düşməsində, ümumən əhalinin rihaf halının daha da yaxşılaşdırılmasında əhəmiyyətli olan bu dövlət proqramlarının uğurlu icrasını Göyçay rayonunun timsalında da görmək mümkündür”, - deyə o əlavə etdi.

İcra başçısının müavini mövcud sosial-iqtisadi inkişafı daha dəqiq görmək üçün rayonda həyata keçirilən yenidənqurma və abadlıq işlərinin statistik göstəricilərinə diqqət çəkdi.

1930-cu ilin avqust ayında təşkil edilən Göyçay rayonunun ərazisi 0,74 min kv.km, əhalisi 116,2 min nəfərdir. Rayonda 1 şəhər və 55 kənd yaşayış məntəqəsi var.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində **2003-2014-cü illərdə rayon üzrə ümumi məhsul istehsalı 2,8 dəfə, sənaye məhsulunun həcmi 4,6 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 141 faiz, əsas kapitala yönəldilmiş vəsait 42,8 dəfə artmışdır. Son 10 il ərzində rayon üzrə 9129 daimi olmaqla 11173 yeni iş yeri açılmışdır. Ötən müddət ərzində Heydər Əliyev Mərkəzi, Olimpiya İdman Kompleksi, Əlil və Şəhid ailələri üçün 21 və 24 mənzilli yaşayış evləri, 2984 şagir yerlik 14 məktəb binası, 576 şagird yerlik 32 əlavə sinif otağı, 1 uşaq bağçası inşa edilmiş, 5100 şagird yerlik 8 məktəb binası əsaslı təmir olnmuşdur. Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün Göyçay çayının məcrasında nizamlayıcı qurğu, 2750 tonluq 2 soyuducu ambar kompleksi, ümumi istehsal gücü gün ərzində 360 ton olan 2 asfalt zavodu, 60 kub metr olan beton zavodu istifadəyə verilmiş, il ərzində 5700 ton nar şirəsi istehsal edən “AzNar” ASC-nin konserv zavodu, gün ərzində 15 ton süd və mövsüm ərzində 2000 ton nar emal edən “Göyçay-Süd” ASC və illik istehsal gücü 15 milyon kərpic olan “Kərpic SAN” LTD-nin kərpic zavodu, 528 min başlıq broyler quşçuluq fabriki ən müasir avadanlıqlarla yenidən qurulmuşdur.** Ölkə prezidentinin sərəncamlarına əsasən, rayon icra hakimiyyətinə ayrılmış vəsait hesabına 9 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Ləkçıplaq-Şıxəmir və 7 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Cəyirli-Yenikənd avtomobil yolları istifadəyə verilmişdir.

Şöbə müdiri dövlət proqramlarının uğurla həyata keçirilməsinin rayonda abadlıq və quruculuq işlərinin aparılmasına münbit şərait yaratdığını da bildirdi: “Xüsusən son aylar rayonda bu istiqamətdə böyük irəliləyişlər əldə edilmiş, şəhərin memarlıq görünüşünün yaxşılaşdırılması, şəhər və kənd yaşayış məntəqələrinin əhalisini narahat edən bir çox sosial-məişət problemlərinin həlli istiqamətində əməli tədbirlər görülmüşdür”.

**Heydər Əliyev Mərkəzinin ətrafındakı ərazidə də böyük tikinti və abadlıq işləri həyata keçirilmiş, bu əraziyə bitişik 20 yaxın fərdi ev və sahibkarlıq obyekti ümumi razılıq qaydasında vətəndaşlardan satın alınmış və mərkəzin ümumi sahəsi 3 hektara çatdırılmışdır. Sökülən ərazidə qısa müddət ərzində gənclər mərkəzi, bayraq meydanı və bayraq muzeyi, fəvvarə kompleksləri, mərkəzin qarşısında ulu öndərin ağ mərmərdən abidəsi ucaldılmışdır.**

Gənclər mərkəzi 2 mərtəbəlidir, ümumi sahəsi 3400 kv.m-dir. Mərkəzin 1-ci mərtəbəsində bovlinq zalı, qolf, tir və texniki otaqlar, kafe və mətbəx, 2-ci mərtəbədə iş və müxtəlif dərnəklər üçün 16 otaq vardır.

Ədalət Dövlətovun sözlərinə görə, Heydər Əliyev Mərkəzinin qarşısındakı ərazi başdan-başa abadlaşdırılmış, yeni işıqlandırma sistemi qurulmuş, İtaliyadan gətirilmiş 500-dən artıq ağac və 10 mindən artıq gül və bəzək kolları əkilmiş, ərazidəki səkilərə 2800 kv.m. tamet piltələr, 1140 kv.m. bardürlər düzülmüş, 3330 kv.m. yaşıllıq ərazisi salınmış və şəhər sakinlərinin istirahəti üçün oturacaqlar düzülmüşdür. Mərkəzin qarşısında, həmçinin parkın ərazisində fəvvarə kompleksləri inşa edilmişdir. Burada həmçinin monitor quraşdırılmış, Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidənqurulması layihəsi çərçivəsində şəhərə verilən içməli suyun rəmzi açılışını bildirən fəvvarə inşa edilmişdir.

Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminə toxunan icra başçısının müavini bu sahədə yenidənqurma işlərinin başa çatdırılmaq üzrə olduğunu bildirmişdir. **“Layihə çərçivəsində rayonun Potu kəndi ərazisində mərkəzi nasosxana, 5 ədəd subartezian qurğusu, xlorator, şəhərin şimal hissəsindəki yüksəkliklərdə hər birinin tutumu 2000 kub metr olan 3 mərkəzi və hər birinin tutumu 500 kub metr olan 2 ötürücü su anbarı inşa edilmiş, müxtəlif diametrli 161474 p/m su, 131091 p/m kanalizasiya xətləri çəkilmiş, 563 ədəd yanğın hidrantı, abonentlər üçün 10210 sayğac quraşdırılmışdır. Hazırda 9400 abonent yeni su mənbəyindən içməli su ilə təmin olunur. Layihə üzrə işlər davam etdirilir və 3 ədəd subartezian quyusunun qazılması, 1 ədəd 2000 kub metr su anbarının, 1 ədəd kanalizasiya nasos stansiyasının, təmizləyici qurğular kompleksinin tikintisi və 4 km. uzunluğunda elektrik xəttinin yenidən qurulması nəzərdə tutulur”,** - deyə Ədalət Dövlətov əlavə etmişdir.

Kənd əhalisinin içməli su ilə təminatını yaxşılşdırmaq məqsədilə 4 kənddə su təmizləyici qurğular istifadəyə verilmiş, ilin sonuna qədər daha 3 kənddə belə qurğuların işə salınması planlaşdırılır. Şəhərin su təchizatı sisteminin yenidənqurulması işlərinin aparılması ilə əlaqədar küçələrdə dağılmış asfalt örtüyünün bərpası istiqamətində işlər aparılmış, 250 min kv.m. yaxın yeni asfalt örtüyü salınmış, piyadaların və nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədi ilə 20 ədəd yeni rəqəmsal işıqforlar quraşdırılmış, şəhər ərazisindəki bütün yol nişanları təzələnmişdir.

Kəndlərin qaz təchizatının yaxşılaşdırılması istiqamətində də tədbirlər görülmüş, cari ilin ötən dövrü ərzində Yekəxana, Şahsoltanlı, Məlikkənd, Şıxbəy, Şıxəmir, Aşağı Qaraməryəm və Dövranlı kəndlərinə təbii qaz verilişi bərpa edilərək, rayon üzrə təbii qazla təmin olunan yaşayış məntəqələrin sayı 28-ə çatdırılmışdır. Hazırda daha 11 kəndə yeni qaz xətləri çəkilir. Rayonun təbii qazla təmin olunmayan digər kəndlərinin qazlaşdırılması üçün layihə-smeta sənədləri hazırlanır.

**Ədalət Dövlətovla Göyçay rayonunun son 10 ildəki dəyişən mənzərəsi haqqında söhbətimizi vaxtla əlaqədar olaraq yekunlaşdırırıq. Təbii ki, rayonun 10 illik sosial-iqtisadi inkişafının əhatə etdiyi bütün sahələri bir məqalədə cəmləşdirmək mümkün deyil, amma ən azından bunu öz gözlərimizlə görə bildik və bacardığımız qədər sizlərə çatdırdıq.**

Düşünürük ki, Nar bayramının təşkil olunduğu hər il Göyçay rayonu bizi öz dəyişən mənzərəsi ilə təəccübləndirəcək və gələcəkdə ölkənin yalnız meyvəçilik deyil, həm də turizm mərkəzlərindən birinə çevriləcək.

*Mətanət HÜSEYNOVA*
*Bakı-Göyçay-Bakı*

# "İnsan Resursları Forumu - Bakı 2015" adlı tədbir keçirilib

"PAŞA Həyat Sığorta" Şirkətinin təşəbbüsü və təşkilati dəstəyi ilə noyabrın 13-də Azərbaycanda ilk dəfə olaraq "İnsan Resursları Forumu - Bakı 2015" adlı geniş tədbir keçirilib.

Forumda beynəlxalq təcrübə və yerli yanaşmanın vəhdətini dinləmək, eyni zamanda, qarşılıqlı fikir mübadiləsi aparmaq üçün ölkənin ən nüfuzlu təşkilat və şirkətlərinin 200-dən çox peşəkar HR rəhbərləri iştirak edib.

Forumda çıxış edən "PAŞA Həyat Sığorta" ASC-nin İdarə Heyətinin sədri Mürsəl Rüstəmov dövlət başçısı cənab İlham Əliyevin "Biz qara qızıl olan nefti insan kapitalına çevirmək siyasətini həyata keçiririk" fikrinə istinad edərək, forumun keçirilməsində əsas məqsədlərinin bu siyasətin icrası ilə bağlı öhdəlikləri layiqincə yerinə yetirmək olduğunu bildirmişdir.

M.Rüstəmov daha sonra insan resurslarının idarə edilməsi sahəsində çalışanların digər sahədə fəaliyyət göstərən peşəkarlardan öz mühüm vəzifələri ilə seçildiyini qeyd etmişdir: "Çünki bu sahənin hər bir peşəkarı istər-istəməz həm özünün, həm çalışdıqları qurumların, həm də ümumilikdə cəmiyyətin peşəkarlıq və fərdi keyfiyyətlərinin inkişafında çox əhəmiyyətli rol oynayırlar. Bu baxımdan bu sahə üzrə təcrübənin peşəkarlar və qurumlar arasında mübadiləsi, beynəlxalq təcrübənin öyrənilməsi və milli dəyərlərimizə adaptasiya edilmiş formada tətbiqi üçün belə bir forumun keçirilməsinin zəruriliyini bir daha vurğulamaq istərdim. Düşünürəm ki, forumun təşkili həm insan resurslarının idarə edilməsi sahəsi üzrə peşəkarlar üçün, həm qurum və təşkilatlar üçün, həm də cəmiyyət üçün çox uğurlu nəticələrlə yadda qalacaq və İnsan Resursları Forumu ənənəvi hal alacaq".

M.Rüstəmov tədbirin "PAŞA Həyat"ın sosial yönümlü növbəti layihələrindən biri olduğunu, həmçinin "PAŞA Həyat" tərəfindən əvvəllər də Azərbaycanı dünyaya tanıtmaq, onun zəngin tarixi mədəni irsini, həmçinin müasir inkişafını dünyaya çatdırmaq istiqamətində bir çox layihələr həyata keçirdiyini bildirib: "PAŞA Həyat" Mədəniyyət və Turizm Nazirliyinin, eləcə də "İRS Publishing House" nəşriyyat evinin dəstəyi ilə İçərişəhərə aid "Qədim qalanın yuxuları", "Qobustan – minilliklərin kitabı", Azərbaycan miniatür sənətindən bəhs edən "Təbrizin sehrli nağılları", "Naxçıvan – Şərqin əfsanəsi", Şəkiyə həsr edilmiş "Məftun edən



şəhər" və Bakının mədəni irsi və müasir nailiyyətlərinə aid "Bakı simfoniyası"adlı kitabların işıq üzü görməsində, onların oxucu kütləsinə çatdırılmasında yaxından dəstək olub".

Daha sonra forumun əsas hissəsinə start verilib və çıxışlar dinlənilib. Forumda son illər ərzində Azərbaycanda insan resurslarının idarə edilməsinə artan maraq, bu sahədə olan inkişaf, həmçinin xarici təcrübənin yerli bazarda tətbiqinin nəticələri müzakirə olunub.

***MƏTANƏT***






# Məqsəd jurnalistlərin peşəkarlıqlarının artırılması, onların əməyinin stimullaşdırılmasıdır

**Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və "Azər-İlmə" Xalçaçılıq Mərkəzinin "Azərbaycan xalçaçılığı: keçmişdən gələcəyə" mövzusunda keçirdikləri müsabiqənin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.**

Tədbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, "Azər-İlmə" Xalçaçılıq Mərkəzinin direktoru Vidadi Muradov, xalçaçılıq sənətinin tanınmış tədqiqatçı-alimləri, 20-dək qəzetin baş redaktorları və qalib jurnalistlər iştirak ediblər.

"Azər-İlmə" Xalçaçılıq Mərkəzinin direktoru Vidadi Muradov qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İCESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Azərbaycan xalçaçılığına sevgi və qayğısı bu sahənin tarixi ənənələrinin qorunub saxlanılmasına və inkişafına imkan yaradıb.

Vidadi Muradov bu sahədə əldə olunmuş nailiyyətlərin ictimaiyyətə dolğun və hərtərəfli şəkildə çatdırılmasında kütləvi informasiya vasitələrinin üzərinə mühüm vəzifələrin düşdüyünü qeyd edib.

Fondun icraçı direktoru Vüqar Səfərli bildirib ki, "Azər-İlmə" Xalçaçılıq Mərkəzi ilə birgə təşkil olunan müsabiqənin məqsədi də məhz Azərbaycan xalçaçılığının tarixi ənənələrinin, hazırki nailiyyətlərinin və gələcək inkişaf perspektivlərinin öyrənilməsi və ictimaiyyətə dolğun şəkildə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

İcraçı direktor avqustun 1-dən oktyabrın 15-dək davam edən müsabiqəyə 29 kütləvi informasiya vasitəsindən 43 yazının təqdim edildiyini, yazıların 3 ekspert tərəfindən qiymətləndirildiyini diqqətə çatdırıb. Fondun icraçı direktoru müsabiqənin yekunlarına görə 6 nəfər jurnalistin əsas, 10 nəfər jurnalistin həvəsləndirici mükafata layiq görüldüyünü, ümumilikdə 16 nəfər jurnalistin mükafatlandırıldığını bildirib.

Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar təqdim edilib.

* * *

Noyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin birgə elan etdikləri "Azərbaycanın alternativ və bərpa olunan enerji mənbələri: mövcud vəziyyət, əsas prioritetlər və perspektiv imkanlar" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb, qaliblər mükafatlandırılıblar.

Tədbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlov, Agentliyin məsul şəxsləri, ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, habelə müsabiqədə iştirakçı və qalib olmuş jurnalistlər iştirak ediblər.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlov tədbir iştirakçılarını salamlayaraq alternativ və bərpa olunan enerji mənbələrini müasir dünya inkişafının əsas amillərindən biri kimi dəyərləndirib. Agentliyin sədri vurğulayıb ki, müstəqil respublikamız zəngin karbohidrogen ehtiyatlarına malik olmasına baxmayaraq, qlobal çağırışlara adekvat reaksiya verərək "sülh enerjisi" kimi səciyyələndirilən alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadəyə üstünlük verir.

Ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə respublikamızda alternativ və bərpa olunan enerji mənbələrindən səmərəli istifadə istiqamətində kompleks tədbirlərin həyata keçirildiyini bildirən A.Bədəlov qeyd edib ki, məqsəd ölkədə rentabelli, habelə ekologiyaya zərər vurmayan enerji istehsalını stimullaşdırmaq, ümumən enerji təhlükəsizliyini gücləndirməkdir. Agentliyin sədri, həmçinin bildirib ki, ölkə başçısının müvafiq sərəncamı ilə 2004-cü ildə "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi bu sahənin dinamik inkişafına əsaslı təkan verib.

Fondun icraçı direktoru Vüqar Səfərli çıxışında tədbir iştirakçılarını salamlayaraq ölkəmizin hazırkı dinamik inkişafı şəraitində alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin sosial-iqtisadi və ekoloji faydalarından söz açıb. İcraçı direktor Agentliyin qısa müddətdə bu sahədə mühüm layihələr həyata keçirdiyini, ölkənin iqtisadi və ekoloji cəhətdən səmərəli elektrik enerjisi ilə təminatına sanballı töhfələr verdiyini bildirib. O, bildirib ki, Fondun Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə birlikdə keçirdiyi müsabiqənin məqsədi Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin qlobal təhlükəsizliyə verdiyi töhfənin, ətraf mühitin qorunmasına müsbət təsirinin, iqtisadi baxımdan səmərəliliyinin ictimaiyyətin diqqətinə çatdırılması, habelə bu sahədən yazan jurnalistlərin peşəkarlıqlarının artırılması, onların əməyinin stimullaşdırılmasıdır.

Vüqar Səfərli 2015-ci il avqustun 1-dən oktyabrın 1-dək davam edən müsabiqəyə 18 kütləvi informasiya vasitəsindən 29 yazının təqdim edildiyini, yazıların Fondun və Agentliyin ekspertləri tərəfindən qiymətləndirildiyini diqqətə çatdırıb. İcraçı direktor müsabiqənin yekunlarına görə 6 nəfər jurnalistin əsas, 10 nəfər jurnalistin həvəsləndirici mükafata layiq görüldüyünü, ümumilikdə 16 nəfər jurnalistin mükafatlandırıldığını bildirib. Müsabiqəyə yazı təqdim edən, lakin qalib olmaq üçün zəruri balı toplaya bilməyən jurnalistlərin də diqqətdən kənarda qalmadığını deyən Vüqar Səfərli onlara Agentliyin xüsusi hədiyyələrinin veriləcəyini bildirib.

Sonra müsabiqənin qaliblərinə diplom və mükafatlar verilib.

# Azərbaycan şirkəti 70 milyon dollarlıq ixrac müqaviləsi bağladı

**"Detal Alüminium" şirkəti ilə Rusiyanın "Alfa–Metal" şirkəti arasında 3 illik əməkdaşlıq müqaviləsi imzalanıb.**

Moskva şəhərində "Metal Expo-2015" sərgisi keçirilib.

Sərgidə Azərbaycanla yanaşı, Rusiya, Almaniya, İtaliya və ÇXR-nın 560-dan çox qara və əlvan metal istehsalçıları öz məhsullarını nümayiş etdirib.

Tikinti, maşınqayırma sənayesi, nəqliyyat, metallurgiya, mühəndislik, metal treyderləri və s. sektorlardan 25-30 min nəfər sərgini ziyarət edib.

Azərbaycanda fəaliyyət göstərən "Detal Alüminium" şirkəti sərgidə stend açaraq, alüminium yarımfabrikat məhsullarını nümayiş edib. Sərgi iştirakçılarına "Detal Alüminium"un istehsal imkanları və məhsul çeşidləri haqqında ətraflı məlumat təqdim olunub.

Tədbir çərçivəsində alüminium istehsalçıları, təchizatçıları və istehlakçılarının görüşü də keçirilib, Rusiya və MDB Metal Sənayeləri Arasında Korporativ Kommunikasiya-2015 adlı konfrans baş tutub. Metallurgiya sənayesi üçün mütərəqqi materiallar, texnologiya və avadanlıqlar haqqında dinləmələr keçirilib.

Sərgi çərçivəsində həmçinin "Detal Alüminium" şirkəti ilə Rusiyanın "Alfa–Metal" şirkəti arasında 3 illik əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən, Azərbaycan şirkəti Rusiya bazarına 30 min ton metalyayma məhsulu ixrac edəcək. Məhsullar əsasən boyalı alüminium rulon və lövhələrdən ibarət olacaq. İndiki qiymətlər səviyyəsində bu müqavilənin dəyəri 70 milyon dollar məbləğindədir. Lakin əmtəə birjalarında metal qiymətləri artsa, müvafiq olaraq müqavilənin dəyəri də artacaq.

# MSK seçkilərə dair yekun sənədlərin Konstitusiya Məhkəməsinə təqdim edilməsi barədə qərar verdi

Mərkəzi Seçki Komissiyası (MSK) noyabrın 1-də Azərbaycan Milli Məclisinə keçirilmiş seçkilərin nəticələri ilə bağlı sənədlərin Konstitusiya Məhkəməsinə təqdim edilməsi barədə qərar qəbul edib.

Trend-in məlumatına görə, MSK noyabrın 1-də Milli Məclisə keçirilmiş seçkilərdə dairə seçki komissiyası protokollarının və onlara əlavə edilmiş sənədlərin yoxlanılmasının nəticələrini müəyyənləşdirib və seçkilərin ümumi yekunlarına dair protokolu tərtib edib.

Daha sonra MSK üzvləri seçkilərin ümumi yekunlarına dair protokolu təsdiq edib və seçkilərin yekunlarının yoxlanılması və təsdiq edilməsi üçün dairə seçki komissiyası protokollarının, onlara əlavə edilmiş sənədlərin Konstitusiya Məhkəməsinə təqdim edilməsi barədə qərar qəbul edib.

# AccessBank güzəştli kredit verən fond ilə əməkdaşlığa başladı

Sahibkarlara Kömək Milli Fondu ilə əməkdaşlığa başlayan AccessBank manatla və güzəştli faiz dərəcəsi ilə kreditlər təklif edərək mikro, kiçik və orta biznes müəssisələrinə dəstəyi genişləndirəcək.

"Mikro və KOB biznesin maliyyələşdirilməsi üzrə yerli bazarın lideri AccessBank güzəştli kreditləri ölkənin sosial-iqtisadi inkişafı üzrə prioritet sahələrin, kənd təsərrüfatı və istehsalatın maliyyələşdirilməsinə yönəldəcək. Bu isə, öz növbəsində iqtisadiyyatın qeyri-neft sektorunun və sahibkarlığın inkişafına öz töhfəsini verəcək", - Bankın məlumatında qeyd olunub.

AccessBank 2002-ci ildə Qara Dəniz Ticarət və İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, KfW, LFS Financial Systems GmbH adlı Alman konsaltinq şirkəti və AccessHolding tərəfindən yaradılıb. AccessBank Azərbaycanda aparıcı bank olaraq tam çeşidli xidmətlər təklif edir, ölkə üzrə geniş filiallar şəbəkəsinə malik olan Bankda 2000-dən artıq əməkdaş çalışır.

FitchRatings agentliyi AccessBank-ı Azərbaycan bankları arasında ən yüksək reytinq hesab edilən BBB- dərəcəsi ilə qiymətləndirib.

# "Neft qiymətləri 2016-da artacaq"

Dünya Neft Şurasının Sədri Joszeph Toth neft qiymətləri üçün növbəti il kiçik bir artım ilə bərabər, daha sabit bir şərait gözlədiyini söyləyib.

Toth "Kəşf-Hasilat-Emal" adlı enerji forumundan sonra sualları cavablandırıb. Neft qiymətləri məsələsində dəqiq bir proqnoz etməyin çətinliyinə işarə edən Toth ancaq bəzi gözləntilərinin olduğunu, məsələn, gələn il neftin qiymətlərində kiçik bir artım ilə bərabər, daha sabit bir şərait gözlədiyini söyləyib.

Toth neftin barrelinin qiymətinin 100 dollara uzun müddət qalxmayacağını dilə gətirərək, "Neft qiymətləri düşdüyü zaman, Hindistan kimi neft idxalçısı olan ölkələr neft alışını artırdığı üçün bazarda təklif artıqlığı çox olmayacaq. Çindəki ümumi neft istehlakı da azalmış deyil.

Sanksiyaların ləğv edilməsinin İranda neft hasilatının artacağı və qlobal bazarlarda təklif çoxluğu yaradacağına dair narahatlıqlara diqqəti çəkən Toth, "İranın bazarın mövcud vəziyyətini başa düşəcəyini və bu səbəblə böyük istehsal artımına gedərək neft qiymətlərində daha da böyük bir azalmaya səbəb olacağını hesab etmirəm", - deyə bildirib.

# 10 ayda idxal artıb

2015-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın ticarət əməliyyatlarının həcmi 17 milyard 205 milyon 907,97 min ABŞ dolları təşkil edib. Bu, keçən ilin müvafiq dövrünə nisbətən 35,21% və ya 9,3 milyard dollar azdır. Keçən ilin 10 ayında Azərbaycanın ixracı 26 milyard 556 milyon 794,81 min ABŞ dolları idi.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, idxal əməliyyatları üzrə 7 milyard 440 milyon 929,84 min ABŞ dolları (keçən ilin müvafiq dövrünə nisbətən 1,08 % artmışdır), ixrac əməliyyatları üzrə 9 milyard 764 milyon 978,13 min ABŞ dolları (keçən ilin müvafiq dövrünə nisbətən 49,13 % azalmışdır) əməliyyat qeydə alınmışdır.

Azərbaycanın ixracı, 2013-cü ilin 10 ayında 20 milyard dollar, 2014-cü ilin 10 ayında isə 19,2 milyard dollar idi.

Ticarət əməliyyatlarında oktyabrda 1 milyard 857 milyon dollarlıq müsbət saldo qeydə alınıb.



# "Komissiyalar və faizlər ilə rəqabət aparmaq keçmişdə qaldı"

2016-cı ildə "Nikoyl Bank"ın 3 illik strateji inkişaf planının hazırlanması planlaşdırılır.

Bunu Bankın İdarə Heyətinin sədri Vasiliy Xamaza bildirib. "Növbəti ildə biz, bu sahədə dünyada tanınmış şirkətlərdən biri ilə Bankın 3 illik strateji inkişaf planının hazırlanmasını planlaşdırırıq. Bu gün öz inkişaf istiqamətini görmək və onu izləmək olduqca önəmlidir", - o deyib.

Vasiliy Xamaza qeyd edib ki, hazırkı gündə əsas inkişaf istiqaməti innovasiya, texnologiya və xidmətin keyfiyyətidir:

"Bank məhsulları üzrə komissiyalar və faiz dərəcələri üzrə rəqabət aparmaq dövrü artıq keçmişdə qaldı. Hal-hazırda, bu gün banklarda aşağı-yuxarı bənzər məhsul çeşidi, oxşar müddət və faiz dərəcələridir. Artıq müştərilər bank seçimi zamanı onun reputasiyası və rahatlığını, əməliyyatların texnoloji əsasını və müştəriyönümlülüyünü rəhbər tuturlar. Hamı evdən çıxmadan bir çox əməliyyat aparmaq, iş saatlarında Bankın filiallarında növbə gözləməmək, eyni zamanda, öz smartfonlarından istifadə etmək istəyir. Biz bu istiqamətdə çox işləyirik. Bizdə istənilən müasir smartfona yüklənə bilən və dünyanın istənilən nöqtəsində istifadəsi mümkün olan plastik kartlar üçün "Mobil Bank" fəaliyyət göstərir. Bu gün, bizim müştərilərimiz təkcə onlayn rejimdə və ya ödəmə terminalları vasitəsilə təkcə kredit ödəmələrini deyil, eyni zamanda, hesablaşma hesabını, plastik kartını, FOREX - hesabını bizim bankda oxşar yollarla artıra bilərlər. Bu il biz müştərilərimizə hüquqi şəxslər üçün çoxfunksiyalı İnternet-Bank xidmətini təqdim etdik. Bununla edilən bütün əməliyyatlar Dövlət sistemi olan "Asan İmza" elektron imzası vasitəsilə tamamilə təhlükəsizdir. Biz müştərilərin rahatlığı üçün "təmassız" adlanan kartlar dövriyyəyə buraxdıq. Bankdaxili proseslərin avtomatlaşdırılması üçün çox işlər görülür ki, bunlar da öz növbəsində müştərilərə xidməti sürətləndirir".

Bankın sədri əlavə edib ki, hazırda bizim üçün əsas prioritet – ölkə əhalisi üçün ən yaxşı İnternet və Mobil Bank sistemini həyata keçirməkdir:

"Cari ildə onun həyata keçirilməsi mümkün olacaq. Biz bütün gücümüzü bu tapşırığın həllinə sərf edirik, çünki bankçılığın gələcəyi texnologiyalar əsasında qurulur, belə ki, insana "divanda uzanaraq" bütün bank hesablarını, kreditlərini, kartlarını və əmanətlərini smartfondan idarə etməyə imkan verir. Və bu asan və cəlbedicidir".

# On ayın yekunlarına həsr olunmuş mətbuat konfransı

Noyabr ayının 17-də Vergilər Nazirliyində vergilər nazirinin 1-ci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov 2015-ci ilin oktyabr ayının 12-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilmiş Nazirlər Kabinetinin iclasında verilmiş tapşırıqların icra vəziyyəti və cari ilin 10 ayı ərzində vergi orqanları tərəfindən görülmüş işlərlə bağlı mətbuat konfransı keçirmişdir.




Ölkənin aparıcı KİV nümayəndələrinin iştirak etdikləri mətbuat konfransında bildirilmişdir ki, ölkə başçısının qətiyyətlə həyata keçirdiyi dövlət quruculuğu prosesi 2015-ci ildə də uğurla davam etdirilmiş, sosial-iqtisadi sahədə bir sıra nailiyyətlər əldə olunmuşdur. Bu ilin 10 ayı ərzində Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 5 milyard 970 milyon 247 manat vəsaitin toplanması təmin olunmuş, proqnoz tapşırığına 100,1 faiz əməl edilmişdir. Təkcə oktyabr ayında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 899 milyon 971 min manatdan artıq vəsait daxil olmuşdur: «Ay ərzində dövlət büdcəsinə qeyri-neft sektoru üzrə 136 milyon manat əlavə vergi daxilolmaları təmin edilmişdir. Ümumilikdə isə cari ilin 10 ayında qeyri-neft sektoru üzrə vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 542 milyon manat çox olmuşdur».

Vergilər nazirinin müavini qeyd etmişdir ki, yanvar-oktyabr ayları ərzində vergi daxilolmaları respublikanın bütün rayonları üzrə 100 faiz həcmində yerinə yetirilmişdir. 2015-ci ildən Sumqayıt, Mingəçevir, Abşeron, Şirvan, İmişli kimi şəhər və rayonlar öz büdcələrini tamamilə yerli gəlirlər hesabına təmin edirlər ki, bu da regionlarda qeyri-neft sektorunun inkişafı, vergi potensialının genişləndirilməsi və daxili gəlirlərin artması hesabına baş vermişdir. 2016-cı ildən isə Naf-talan şəhəri də öz büdcəsini yerli gəlirlər hesabına təmin edən şəhərlər sırasına daxil olacaq.

Vergi orqanlarında həyata keçirilən islahatlara toxunan N.Əmirov cari ildə vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, elektron xidmətlərin genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirildiyini bildirmişdir.

Qeyd edilmişdir ki, dövlət büdcəsinin gəlirləri üzrə proqnoz göstəricilərinin icrası ilə yanaşı, sahibkarlığın inkişafı, xüsusilə də kiçik və orta biznesin fəaliyyətinin genişləndirilməsi vergi orqanlarının qarşısında duran əsas vəzifələrdəndir. Bununla yanaşı, kiçik dövriyyəyə malik sahibkarlıq subyektlərinə münasibətdə vergi orqanları daha çox tərəfdaş kimi çıxış etməyə çalışır, bu qəbildən olan vergi ödəyicilərində aparılan yoxlamaların sayının minimuma endirilməsi üçün tədbirlər görülür: «Ölkə başçısının Nazirlər Kabinetinin son iclasındakı çıxışı və orada verilmiş tapşırıqlara uyğun olaraq, Vergilər Nazirliyinin kollegiyasının qərarı ilə illik dövriyyəsi 120 min manatdan aşağı olan sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin keçirilməsi - əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla - dayandırılmışdır».

Bildirilmişdir ki, vergi ödəyicilərinə göstərilən xidmətlərin səmərəliliyinin artırılması, kiçik və orta sahibkarlara göstərilən ünvanlı xidmətlərin genişləndirilməsi, regionlarda çalışan sahibkarlara vergi öhdəliklərinin yerinə yetirilməsində hüquqi, texniki və əməli xidmətlərin göstərilməsi, partnyorluq münasibətlərinin dərinləşdirilməsi, keçirilmiş səyyar vergi yoxlamaları və operativ nəzarət tədbirlərinin nəticələri üzrə aktların təhlil edilməsi, əsassız və nəticəsi olmayan yoxlamalarla bağlı müvafiq araşdırmaların aparılması və bu sahədə nöqsanlara yol vermiş vergi orqanı əməkdaşlarının məsuliyyət məsələsinə baxılması istiqamətində ciddi tədbirlər görülür: «Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vergi orqanları qarşısında qoyduğu vəzifələrin icrasını təmin etmək məqsədilə vergitutma bazasının genişləndirilməsi, mövcud vergi potensialından daha səmərəli istifadə olunması üçün hərtərəfli iqtisadi təhlillər aparılaraq, aidiyyəti dövlət orqanlarına konkret təkliflər verilmişdir. Vergi Məcəlləsinə təklif edilən dəyişikliklər Milli Məclisdə müzakirəyə çıxarılaraq qəbul olunmuş, imzalanmaq üçün dövlət başçısına təqdim edilmişdir».

Vergi orqanlarında vətəndaş müraciətlərinə baxılması vəziyyətinə toxunan N.Əmirov vurğulamışdır ki, son vaxtlar ölkə vətəndaşlarının ictimai fəallığı xeyli artmışdır. Əvvəlki illərdən fərqli olaraq, vergi ödəyiciləri nazirliyə və yerli vergi orqanlarına daha çox konkret məsələlərlə bağlı müraciət edirlər, vergidən yayınma halları barədə vergi orqanlarına məlumat verməklə öz vətəndaşlıq borclarını yerinə yetirirlər.

Qeyd olunmuşdur ki, vergi orqanlarının üzərinə düşən vəzifələr kifayət qədər çətin və mürəkkəb olsa da, nazirliyin rəhbərliyinin mövqeyi belədir ki, cənab Prezidentin verdiyi tapşırıqlar tam həcmdə icra ediləcəkdir.

Sonda N.Əmirov vergi orqanları qarşısında qoyulmuş vəzifələrin icrasında, yüksək vergi mədəniyyətinin formalaşmasında KİV nümayəndələrinin müsbət rolunu xüsusi vurğulayaraq, nazirliyin rəhbərliyi adından onlara təşəkkürünü bildirmiş və sualları cavablandırmışdır.

# Vergi xidməti əməkdaşları üçün təlim



Dövlət vergi orqanlarında xidmət edən vəzifəli şəxslərin idarəetmə sahəsində peşəkarlığının artırılması məqsədilə Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində təlim keçirilib. «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi çərçivəsində təşkil olunan beşgünlük tədbirdə «Liderlik və qərarvermə», «Komanda işi: yüksək səmərə və məhsuldar komanda», «Vaxtın idarə edilməsi» və digər mövzular üzrə beynəlxalq təcrübədən məlum olan ən müasir biliklər təqdim edilib. Təlimin əsas aparıcıları İspaniyanın idarəetmə sahəsində tanınmış mütəxəssisləri Luis Kremades Uqarte və Mariano Rojo olublar. Təlimlərdə «e-öyrənmə», bilik, biliklərin ötürülməsi mexanizmləri, vergi inzibatçılığının səmərəlilik göstəricilərinin artımı, motivasiya və təşviq əsasında işçilərin yüksək fərdi nailiyyətlərinin artırılması, karyerada irəliləyiş, təlim və tədris proseslərinin təşkili sahələrində tətbiq olunan yeniliklər və digər məsələlər barədə müzakirələr aparılıb.

«Liderlik və qərarvermə» mövzusunda müzakirələr zamanı vurğulanıb ki, idarəetmənin təkmilləşdirilməsində mühüm rol oynayan liderliyin başlıca şərti özünəinam və səlahiyyətdir. Bu isə istək, öyrənmə, yaradıcılıq, effektiv ünsiyyət, komanda ilə işləmək və başqalarına xidmət mərhələlərini əhatə edir. Liderliyin etibarlılığını və prinsiplərini səciyyələndirən əsas keyfiyyət işi yerinə yetirmək, rasionallıq və nəzarət, problemlərin qısa müddətdə həlli, uğurlu nəticələrə nail olmaqdır. Liderin başlıca keyfiyyətləri gələcəyi görən, ruhlandırıcı, komanda qurucusu, biznes və işə «can yandıran», hədəf və məqsədləri təyin edən və s. faktorlarla xarakterizə olunur. Liderlikdə avtoritar üsul pis nəticə kimi qiymətləndirilir. Komanda ilə işləmək isə ən uğurlu yoldur və hər hansı məsələdə qalibiyyəti təmin edir.

«Komanda işi: yüksək səmərə və məhsuldar komanda» mövzusunda diqqət ona yönəldilib ki, hər bir komandada müəyyən bir iş sahəsində təyin olunmuş hədəflərə çatmaq üçün bir qrup insanın birgə çalışması əsas şərtdir. Qrup işinin nəticəsi isə qrup üzvlərinin fərdi şəkildə göstərdiyi məhsuldarlıqdır. Məhsuldarlıq təşkilatlarda məlumatları, fikirləri bölüşmək, öz işini daha yaxşı görə bilmək üçün hər kəsə qərar verməkdə yardım göstərmək, fərdi məhsuldarlıq standartlarını yaxşılaşdırmaqla əldə olunur. Ümumi hədəf və məqsədlərə malik olan, ortaq iş yanaşması və qarşılıqlı məsuliyyətləri olan bir qrup insanın birgə fəaliyyəti sayəsində yüksək məhsuldarlıq göstərən komanda təşkil olunur.

«Vaxtın idarə edilməsi və ünsiyyət» mövzusunda təqdimat idarəetmə sahəsində vaxt amilinə həsr olunub. Vaxtı səmərəli idarə etmək üçün qısa, orta və uzunmüddətli hədəfləri müəyyənləşdirmək, prioritetləri düzgün təyin etmək, müvafiq planlaşdırma və proqramlaşdırma aparmaq lazımdır. Düzgün və səmərəli istifadə olunan vaxt komandada iş fəaliyyətinin ahəngdarlığına müsbət təsir göstərir, işçilərin motivasiyasında da rol oynayır.

Canlı müzakirələr şəraitində öz işini başa çatdıran təlim iştirakçıları bu cür tədbirlərin vergi xidməti əməkdaşlarının idarəetmə sahəsində peşəkarlığının artırılmasında mühüm əhəmiyyətini vurğulayıblar.

*Elbrus CƏFƏRLİ*

# Vergilər Nazirliyi: Ən çətin dövr arxada qaldı

**Vergilər Nazirliyi 2015-ci il üzrə 7 milyard 112 milyon manat büdcə proqnozunu tamamilə yerinə yetirəcəkdir.**

Bunu keçirdiyi mətbuat konfransında vergilər nazirinin 1-ci müavini Natiq Əmirov bildirib.

"Ən çətin dövr arxada qaldı. Bizi ən çox neft konsorsiumlarının nə qədər kəsir ilə büdcəyə ödəniş edəcəkləri narahat edirdi. Oktyabr ayı neft konsorsiumlarının dövlət büdcəsinə ödənişlərinin sonuncu ayıdır. Oktyabr ayında neft konsorsiumları dövlət büdcəsinə sonuncu ödənişi ediblər. Neftin qiymətinin düşməsi ilə əlaqədar olaraq onların ödənişlərinin nə qədər azalacağı bizi maraqlandırırdı. Elə bir vəziyyətlə üzləşdik ki, neft konsorsiumları 2015-ci ilin dövlət büdcəsində nəzərdə tutulan məbləğdən 104 milyon manat az vəsait köçürdülər. Neft konsorsiumlarının büdcəyə ödəyəcəkləri mənfəət vergisi proqnozu 800 milyon manat idi. Lakin neftin qiymətinin aşağı düşməsilə əlaqədar olaraq ödəniş 104 milyon manat az, yəni 696 milyon manat oldu. Çox şükür ki, bu kəsir 104 milyon manat təşkil etdi. Yaxşı ki, qeyri-neft sektoru inkişaf etdiyindən bu kəsiri bağlaya bildik. Qeyri-neft sektoru üzrə nəzərdə tutulan proqnozdan 136 milyon manat çox vergi daxilolmaları təmin edilmişdir. Ümumiyyətlə, ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-neft sektorundan əlavə 542 milyon manat verginin yığılması təmin edilmişdir".




Natiq Əmirov qeyd edib ki, Vergilər Nazirliyi 2015-ci ilin 10 ayını müvəffəqiyyətlə başa vurmuşdur:

"Vergilər Nazirliyi 10 ay üzrə 5 milyard 965 milyon manat vergi proqnozu tapşırığına qarşı, büdcəyə 5 milyard 970 milyon manat vəsait cəlb etmişdir".

# Vətəndaş müraciətlərinin 51,9%-i müsbət həll olunub

2015-ci ilin oktyabr ayı ərzində vergi orqanlarına 10.250 müraciət daxil olmuşdur ki, bunlardan da 95,8%-i ərizə, 4%-i şikayət, 0,2%-i təklifdir.

Müraciətlərin 45,8%-i kameral vergi yoxlamaları, 6,6%-i vergi borcları, 1,7%-i operativ vergi nəzarəti, 1,6%-i səyyar vergi yoxlamaları, 1,4%-i vergidən yayınma və dividendlərin verilməsi, 0,7%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,4%-i korrupsiya hüquqpozmaları, 41,85%-i digər məsələlərlə bağlı olmuşdur. Daxil olmuş müraciətlərin 51,9%-i müsbət həll olunmuş, 15,3%-i barədə müvafiq izahatlar verilmiş, 2,3%-i əsassız sayılmış, 0,4%-i qismən həll edilmiş, 0,4%-i aidiyyəti üzrə göndərilmiş, 29,7%-i isə icradadır.

Hesabat dövründə vergi orqanları tərəfindən ümumilikdə 501 vətəndaş qəbul edilərək, onlara mövcud qanunvericilik çərçivəsində lazımi kömək göstərilmiş və ya müvafiq izahatlar verilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın şəhər və rayonlarında vətəndaşların qəbulu qrafikinə əsasən, oktyabrın 23-də vergilər naziri Fazil Məmmədov tərəfindən Beyləqan rayonunda vətəndaşların qəbulu keçirilmişdir.

# Vergi bəyannaməsini telefon zəngi ilə də təqdim etmək mümkündür



Vergi sahəsində son illərin maraq doğuran xidmətlərindən biri mobil rəqəmsal identifikasiya, başqa sözlə, «ASAN imza»dır. «ASAN imza» vətəndaşın öz mobil telefonundan istifadə edərək bu və ya digər elektron xidmətdən asanlıqla və təhlükəsiz yararlanmasına imkan verir.

Vergilər Nazirliyinin Çağrı Mərkəzi tərəfindən «ASAN imza»dan istifadə edilməklə vergi ödəyicilərinin istifadəsinə verilmiş yeni nəsil elektron xidmətlərin əhatə dairəsi getdikcə genişlənir. Çağrı Mərkəzinin rəisi Nurlan Bayramlının sözlərinə görə, artıq «ASAN imza»sı olan vergi ödəyicilərinin sadələşdirilmiş vergi bəyannamələrinin göndərilməsi üçün vergi orqanına getmələrinə ehtiyac yoxdur: «Vergi ödəyicisi öz «ASAN imza»sından istifadə etməklə bəyannamələrini bir telefon zəngi vasitəsilə göndərə bilir. Bunun üçün «195» Çağrı Mərkəzinə zəng etmək kifayətdir. Zəngi qəbul edəcək Mərkəzin təmsilçisinə «ASAN imza» nömrəsini, istifadəçi İD-sini və dövriyyə barədə məlumatı bildirməklə vergi ödəyicisi mobil telefonuna SMS şəklində gələn vergi bəyannaməsinin məlumatları ilə tanış olduqdan sonra «ASAN imza» PİN2 kodunu mobil telefonuna daxil edərək bəyannaməni imzalayır və sənəd sistem tərəfindən qəbul olunur. Paralel olaraq, icra edilmiş əməliyyat barədə məlumatlar avtomatik şəkildə vergi ödəyicisinin İnternet Vergi İdarəsində olan elektron qutusuna göndərilir».

Hazırda Çağrı Mərkəzi vasitəsilə fiziki şəxsin onlayn qeydiyyatı və şəhadətnamə-dublikatın alınması üçün ərizənin göndərilməsi xidmətlərinin tətbiqi istiqamətində işlər davam etdirilir.

***FƏXRİYYƏ***

# Təlim prosesi elektronlaşdırılır

Noyabrın 14-də Vergilər Nazirliyinin elektron kitabxanası «Onlayn təlim» sistemi üzrə «Dövlət vergi orqanlarının vəzifəli şəxsləri üçün vergi yoxlamalarının prosedurları» mövzusunda təlim təşkil edib.

Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Hüquq idarəsinin Məhkəmə işlərinin təşkili şöbəsinin hüquqşünası Xamis Seyranovun apardığı onlayn dərs «Sahibkarlıq sahəsində yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanun və onun əsasında qəbul edilmiş digər normativ hüquqi aktlar, yoxlamalar zamanı əldə olunmuş kommersiya (vergi) sirrini təşkil edən məlumatların qorunmasının təmin edilməsi məqsədilə Vergi Məcəlləsinin, «Kommersiya sirri haqqında» Azərbaycan Respublikası Qanununun və digər normativ hüquqi aktların müvafiq maddələri barədə olub.

Vergilər Nazirliyinin Tədris Mərkəzinin Vergi metodologiyası kafedrasının baş müəllimi Yaşar Dəmirov «Səyyar vergi yoxlaması zamanı həyata keçirilən hüquqi hərəkətlər haqqında» vergilərin tam və vaxtında yığılmasını təmin etmək məqsədilə vergi nəzarətinin həyata keçirilməsi məsələlərinə aydınlıq gətirib.

Təlim müddətində təcrübədə daha çox rast gəlinən və vergi ödəyiciləri tərəfindən mübahisə obyektinə çevrilən məsələlər ətrafında müzakirələr aparılıb. Təlimin sonunda iştirakçıların onlayn rejimdə göndərdikləri suallar cavablandırılıb.

# Fazil Məmmədovun 1-ci müavinindən işdən çıxarılma ilə bağlı açıqlama

Vergilər nazirinin müavini Natiq Əmirov nazir Fazil Məmmədovun işdən çıxarılması ilə bağlı yayılan məlumatlara münasibət bildirib.

"Qafqazinfo"nun əməkdaşının sualını cavablandıran N. Əmirov bildirib ki, nazirliyin Mətbuat Xidmətinin rəhbəri iki saytda belə məlumat getdiyi barədə onlara məlumat verib: "Daimi ünsiyyətdə olduğumuz mətbu orqanlarda belə məlumatlar getməyib. Cəmiyyətdə, ailə daxilində də hər hansı söhbətlər olur. Hər bir nazirin işdən çıxarılması prezidentin səlahiyyətlərinə aiddir. Və bununla bağlı informasiya yaymaq tərəfimizdən ədəbsizlik kimi qəbul edilir.

Hazırda nazirliyin fəaliyyətində problemin olduğunu müşahidə etmirik. Qarşıya qoyulan vəzifələr icra edilib. Ciddi qəbul etdiyimiz heç bir mətbu orqanda bu haqda məlumat görməmişik".

# Spirtli içkilər kartla satılacaq

Vergilər Nazirliyi spirtli içkilərin nağdsız qaydada satışı ilə bağlı qanunvericiliyə edilmiş dəyişikliyə aydınlıq gətirib.

Vergilər nazirinin 1-ci müavini Natiq Əmirov bildirib ki, tütün məmulatları necə satılırdısa, elə də nağd qaydada satılacaqdır.

"Tütün məmulatlarının satışı həm də sosial layihədir. İnsanlar, xüsusilə yaşlı insanlar siqaretdən tez-tez istifadə edirlər. Rayonlarda, kəndlərdə də siqaretdən istifadə edən vətəndaşlar çoxdur. Siqaretlərin nağdsız qaydada satılması kimi bir tələb yoxdur.

Alkoqollu içkilər isə sosial məsələ deyil. Bir çox Avropa ölkələrində alkoqollu içkilər ixtisaslaşdırılmış mağazalarda satılır. Mümkün qədər onların satışı məhdudlaşdırılır. Bütün dünyada alkoqollu içkilərin satışına nəzarət mexanizmləri fikirləşirlər, amma hələlik ideal variant tapılmayıb.



Bu günə qədər Azərbaycanda 84 minə qədər POS-terminal quraşdırılıb. Bu gün əgər hansısa kənddə POS-terminal yoxdursa, ölkədə kifayət qədər quraşdırıla biləcək POS - terminal var. POS-terminalın quraşdırılması pulsuz həyata keçirilir. Sahibkarların heç bir xərci çıxmır. Digər tərəfdən, pensiyaçılar daxil ölkədə 60 milyon plastik kart var. Bu bizə imkan verir ki, alkoqollu içkilərin satışını plastik kartlar vasitəsilə keçirək. Biz düşünürük ki, bu sahədə əhəmiyyətli irəliləyişə nail olacağıq. Çünki nağd qaydada alkoqollu içkilərin satışına çox ciddi inzibati cərimələr nəzərdə tutulur. Eyni zamanda, Cinayət məcəlləsində müvafiq maddələr nəzərdə tutulub".

# Проводится программа “Реинтеграция и реабилитация уличных детей”



По инициативе и просьбе Azercell Telecom молодежная организация “Ümidli Gələcək” ("Надежное будущее") приступила к реализации программы "Реинтеграция и реабилитация уличных детей" в детском приюте "Ümid Yeri". В рамках программы, сначала оцениваются социальные, психологические и юридические потребности детей, исследуются причины, вынудившие их вести уличную жизнь, и на основе этого разрабатывается личный план опеки и развития ребенка. На основе данного плана принимаются меры для разрешения их психологических, юридических и др. проблем, а также для их возвращения в школу и получения какой-либо специальности. В то же время, ведется поиск родителей или ближних и дальних родственников, и проводится необходимая работа по воссоединению детей с своими семьями.

Отметим, что это не первый проект, реализованный Azercell, совместно с организацией “Ümidli Gələcək”. Еще в 2010 году была создана «Азербайджанская Детская Горячая Линия» в целях оказания психологической и эмоциональной поддержки детям и молодым людям, и их направления в различные центры социальных услуг. Основной целью «Азербайджанской Детской Горячей Линии» является оказание социальных услуг, психологической и правовой помощи и эмоциональной поддержки каждому ребенку, находящемуся в трудной жизненной ситуации, а также всем лицам, занимающимся их проблемами, предоставление ребенку правильного совета для разрешения проблем, с которыми он столкнулся, при необходимости его направление в соответствующие центры социальной реабилитации. За 5 лет своей деятельности на телефоны службы «Азербайджанская Детская Горячая Линия» поступило более 11,50 звонков, охватывающих различные насущные проблемы молодого поколения.

# Кто придумал Книгу рекордов Гиннеса

В субботу 10 ноября 1951 года сэр Хью Бивер, управляющий пивоваренной компании "Гиннес", охотился вместе с друзьями в урочище Северная грязь у реки Слани, на юго-востоке Ирландии. Но досадный случай - охотники стреляли неудачно, и несколько золотистых ржанок не попало на стол. А вечером, в кругу друзей, собравшихся в имении Карлсбридж Хаус, разгорелся жаркий спор: является ли эта птица самой быстрой в Европе. К сожалению не нашлось ни одного справочника, который бы смог удалить любопытство этих джентельменов.

В августе 1954 года аналогичный спор возник из-за тетерева, который казалось им летал еще быстрее. Сэр Хью Бивер подумал, что сотни подобных вопросов наверняка обсуждают люди со всего света, и что книги, которая помогла бы разрешить споры о рекордах, нет.

12 сентября 1954 года сэр Хью пригласил на аудиенцию братьев Норриса и Росса Макхуэртеров, чтобы выяснить, не поможет ли их информационное агентство организовать подобный справочник.
Издательство нового справочник открыли в Лондоне и работа над первым изданием началась.Первый печатный экземпляр Книги рекордов Гиннеса на 198 страницах вышел 27 августа 1955 года, но уже к рождеству она возглавила список бестселлеров. Книга рекордов Гиннеса была переиздана на 37-ти языках и завоевала место на своих же страницах, как самое популярное издание, охраняемое авторским правом.




# Как появился знаменитый Форт Бойяр



История создания форта началась еще в далеком 1666 году, в период правления Людовика XIV, когда французский министр финансов дал указание определенной верфи построить корабли рядом с городом Рошфор, расположенный близ устья реки Шаранта.

Тогда-то и появилась веская необходимость создания форта, который должен был находится посередине пролива и вместе с береговыми батареями осуществлял бы огненную блокаду перед кораблями противника.

Поручив создание проекта и строительство известнейшему инженеру-фортификатору, Себастьяну Ле Претр де Вобан, Людовик XIV получил отказ от реализации этой затеи, так как инженер был уверен в невозможности строительства при тех условиях и возможностях, воскликнув королю: «Сир, легче ухватиться за луну зубами, чем построить крепость в таком месте».

С наступлением XIX века строительство такого рода сооружения было уже намного реальнее, да и весьма актуально, ведь во время правления Наполеона I его внешняя политика обострила отношения Франции с Великобританией. Строительство стартовало в 1801 году. Благодаря существовавшей песчаной отмели (от которой и пошло название форта) в той области, непосредственно на нее стали укладывать фундамент в виде каменных блоков. Но никто не предусмотрел того, что под своей тяжестью блоки не фиксировались плотно, съезжая и утопая вглубь грунта. По этим причинам в 1809 году строительство было приостановлено и возобновлено аж в 1837 году в период правления Луи-Филиппа I, потому как отношения с Великобританией снова оставляли желать лучшего.






Процесс строительства был довольно долгим и закончился он лишь спустя 20 лет.

Форт оказался довольно больших размеров, которые составляли в длину — 68 метров, в ширину — 31 метр, а в высоту — 20 метров. Гарнизон форта Боярд составил 250 человек, но к тому времени он уже стал бессмысленным в своем прямом назначении. С момента начала строительства дальнобойность артиллерийского оружия усилилась в разы и поэтому береговые батареи легко перекрывали пролив.

# ОАО «АтаБанк» сохранил свою стабильность

Международное рейтинговое агентство Fitch Ratings в очередной раз подтвердило краткосрочный рейтинг одного из ведущих банков Азербайджана – ОАО «АтаБанк» на уровне 'B' с прогнозом «стабильный».

Оценка рейтинга агентства ОАО «АтаБанк» Fitch Ratings базировалась на положительном опыте банка в оценке корпоративного управления, его большей прозрачности и возрастающей доходности.

Отметим, что рейтинговое агентство присвоило ОАО «АтаБанк» рейтинг в 2012 году, а в марте 2015 года подтвердило его в последний раз.

Функционирующий с 1993-го года ОАО «АтаБанк» является одним из самых больших финансовых структур Азербайджана. Сегодня ОАО «АтаБанк» является высокотехнологичным универсальным банком. В настоящее время сеть ОАО «АтаБанк» состоит из 26 филиалов и отделений в Баку и регионах республики. Банк предоставляет полный спектр услуг корпоративным и частным клиентам.




# Azercell предоставляет электронный доступ к литературным шедеврам!



С новой электронной услугой Компании Азербайджанская и мировая литература станет более доступной

Являясь ведущей компанией в области социальных и технологический инноваций, лидер рынка мобильных технологий Азербайджана Azercell Telekom подготовил невероятный подарок для любителей чтения: теперь, благодаря популярному приложению Bookmate, все абоненты Azercell смогут читать книги на азербайджанском, русском, английском и турецком языках без ограничений.

Bookmate – мобильный сервис, созданный для чтения тысяч книг для на электронных устройствах.
Данная услуга создает наиболее удобный способ для поиска и чтения интересующих вас произведений на телефоне, планшете или компьютере. Таким образом, мобильная библиотека, представленная Azercell, открывает доступ к более чем 500 000 наименований. Используя значительную скидку, абонент Azercell может подписаться на фантастику, классическую, современную и бизнес литературу. Azercell даже предоставляет своим абонентам-книголюбам возможность для бесплатного чтения. В этом случае, абоненты получают доступ к определённому количеству произведений классических авторов. Всего за 3,5 азн в месяц пользователи Bookmate могут прочесть или загрузить любую книгу на свое мобильное устройство. Отметим, что оплачивая ежемесячную абонентскую плату со своего баланса, пользователи могут очень удобно и безотлагательно воспользоваться электронной библиотекой не производя каких-либо дополнительных оплат с банковской карточки.

Проект Bookmate имеет множество преимуществ. Например, в отличие от других услуг, нет необходимости платить отдельно за каждую книгу. Абоненту достаточно раз в месяц оплачивать со своего баланса 3,5 азн, чтобы получить доступ и загрузить любую книгу из этой огромной библиотеки. Таким образом, ежемесячная абонентская плата за эту услугу гораздо дешевле, чем цена даже одной печатной книги. Другим важным моментом является то, что пользователи этой библиотеки получают доступ не только к зарубежной литературе, но и к широкому списку работ азербайджанских авторов. Один из самых важных преимуществ службы - библиотека Bookmate не требует постоянной связи с Интернет для пользования. Загруженная книга доступна в любой момент, в любом месте, например, ее можно прочитать в метро или в самолете. Кроме того, не имеет значения какое устройство находится под руками, телефон, планшет или компьютер. Вы загружаете книгу не на устройство, а добавляете в свою личную библиотеку.

Впервые в рамках Bookmate абонентам предлагаются книги на Азербайджанском, а также на русском, английском и турецком языках. Каждый пользователь получает доступ к полумиллионной библиотеке с самыми лучшими бестселлерами, а также с самыми популярными и продаваемыми образцами известных классических, современных и других произведений.

Следует отметить, что Bookmate работает на операционных системах Android и iOS. Помимо этого, абоненты также могут войти на Интернет страницу www.bookmate.com для чтения книг или их загрузки на свои мобильные устройства.

Более подробную информацию об услуге и условиях подключения можно получить на странице: www.azercell.com/bookmate.

# 5 УРОКОВ МЕНЕДЖМЕНТА, КОТОРЫЕ ПРИВЕДУТ ВАС К УСПЕХУ

**Как создать правильную атмосферу в коллективе, стать успешным руководителем и привести компанию к процветанию? Об этом не понаслышке знают опытный менеджер Денни Стригл и бизнес-консультант Фрэнк Свайтек. В своей книге «Менеджерами не рождаются» они отвечают на самые популярные вопросы управленцев, дают ценные советы и приводят конкретные примеры из своей практики. Несколько важных мыслей из книги — в нашем материале.**

**Концентрируйтесь на четырех задачах**

Согласно книге, если вы собираетесь стать успешным управленцем, запомните главное правило: вам нужно концентрироваться на результате. И, несмотря ни на что, каждый день стремиться к тому, чтобы поставленные цели были достигнуты.

Перестаньте расходовать силы, деньги и время на вещи, которые не связаны с самыми важными задачами. Их всего четыре: удержание клиентов, привлечение новых клиентов, рост прибыли, уменьшение расходов. Кем бы вы ни были — маркетологом, юристом, инженером, бухгалтером — вы должны прежде всего думать об этих целях.

Именно от того, насколько вы будете следовать этому правилу, зависит ваша способность ставить верные задачи перед подчиненными.

**Избавьтесь от того, что вас отвлекает**

Большинство людей тратят львиную долю рабочего времени на совершенно ненужные вещи: просмотр электронной почты, скайп, информационный шум в Интернете, телефонные звонки, совещания, отчеты. Все это стоит отбросить, если не ведет к результату и мешает выполнить основные задачи. Перестаньте отвлекать подчиненных и отвлекаться сами на то, что можно без ущерба для работы отложить или вовсе не делать.

При работе с электронной почтой следуйте нескольким принципам: она должна ускорять работу, а не тормозить ее; иногда лучше позвонить, чем писать длинные письма и выяснять, чего от вас хочет собеседник; групповые рассылки ни к чему, если ваше письмо требуется только одному человеку; тратьте на одно сообщение не больше нескольких минут; пишите и отвечайте на письма только тогда, когда это действительно необходимо. Последний принцип относится также к отчетам и совещаниям. Боритесь с бюрократией — это ваш злейший враг.

**Будьте открытыми**

Создайте открытую рабочую среду. Пусть у каждого из ваших сотрудников будет возможность высказаться, зайти к вам в кабинет и поделиться идеей, выразить несогласие на этапе обсуждения какой-либо задачи. Не сидите весь день за своим компьютером, общайтесь с коллегами. Так вы проявите уважение к людям и сможете завоевать их доверие. А это важные составляющие успешного рабочего процесса.

Однако есть важный нюанс: последнее слово все-таки за вами. Не стоит позволять сотрудникам препираться, когда вы уже выслушали их и приняли решение. Также не нужно пытаться прийти к согласию со всеми коллегами. Без конца менять свой план в угоду каждому сотруднику — не лучшая стратегия. Гораздо продуктивнее принимать решения быстро, даже если они окажутся ошибочными.

**Станьте примером для подчиненных**

Ответственность, энтузиазм и честность — главные качества менеджера. Поэтому каждому управленцу стоит научиться принимать решения и отвечать за их последствия, не обвиняя в неудачах других людей. Если подчиненные не справляются — это недоработка менеджера, которую он должен постараться исправить как можно быстрее, вместо того чтобы искать виноватых.

Это не значит, что вы все должны делать самостоятельно. Умение правильно делегировать задачи тоже входит в круг обязанностей управленца. Но выполнение поставленных целей в первую очередь зависит от вас. Сотрудники обычно ведут себя так же, как их руководитель, поэтому ваш подход к работе принципиально важен для формирования здоровой атмосферы в коллективе, когда каждый привержен своему делу.

**Требуйте больше**

Высокие ожидания говорят о вашем уважении к подчиненным и вере в их способности. Смело поднимайте планку, если хотите получить лучшие результаты и вызвать у людей гордость за то, что они делают. Сообщите сотрудникам, чего именно от них ждете, и убедитесь, что они правильно понимают поставленные задачи.

В ваших руках рост и развитие подчиненных. Помогите им не просто добиться успеха, но и сделать его более значительным. Объясните и докажите сотрудникам, что не существует предела возможностей. Выводите их из зоны комфорта, чтобы они сами смогли проверить свои силы. Просите больше, если задача уже выполнена: пусть ваши подчиненные стараются выйти на новый уровень и сделать свою работу еще лучше.

*http://new-retail.ru*

*Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 30 sentyabr tarixli 266/1 saylı qərarı ilə təsdiq edilmişdir.*

# ABC şirkətinin Audit Komitəsinin nümunəvi ƏSASNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Audit Komitəsi (bundan sonra Komitə adlanacaqdır) «____________________» Azərbaycan Respublikası Qanunu (Şirkətin fəaliyyət sahəsini tənzimləyən normativ hüquqi akt və ya aktlar göstərilir), "Daxili Audit haqqında" Azərbaycan Respublikasının Qanunu, ___________ (əgər varsa – Şirkətin fəaliyyət sahəsini tənzimləyən orqanın müvafiq normativ aktları göstərilir) «ABC» şirkətinin (bundan sonra «Şirkət») Nizamnaməsi və bu Əsasnamə əsasında fəaliyyət göstərir.

1.2. Komitə Şirkətin Müşahidə Şurasının (və ya digər səlahiyyətli orqanının) təqdimatı əsasında Səhmdarların Ümumi Yığıncağı (və ya digər səlahiyyətli orqanı) tərəfindən təyin olunmuş, Şirkətin daxili nəzarət sisteminin qiymətləndirilməsini və monitorinqini həyata keçirən tövsiyəverici orqandır. Həmçinin, bu orqan Şirkətin maliyyə nəzarəti sistemini nəzarət etməkdə Müşahidə Şurasına (və ya digər səlahiyyətli orqanına) kömək göstərir və lazım gəldikdə Səhmdarları (təsisçiləri) Şirkətin maliyyə vəziyyəti barədə məlumatlandırır.

1.3. Komitə öz fəaliyyəti barədə ildə bir (və ya sayı göstərilir) dəfədən az olmayaraq Səhmdarların (Təsisçilərin) Ümumi Yığıncağı və ya təsisçinin və ildə dörd (və ya sayı göstərilir) dəfədən az olmayaraq Şirkətin müvafiq səlahiyyətli orqanın (adı göstərilir) qarşısında hesabat verir.

1.4. Audit komitəsinin nümunəvi əsasnaməsi Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyasında (2012-2020-ci illər) və Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2014-cü il 16 dekabr tarixli 258/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasi Auditorlar Palatasinin 2015-2017-cı illər üzrə iş planın 1.4 " Auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması " bəndində nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar auditin korporativ təşkili və tənzimlənməsinin vahid sistemə və formaya salınması vasitəsilə təkmilləşdirilməsi məqsədilə hazırlanmışdır.

**2. Komitənin səlahiyyətləri**

2.1. Komitə aşağıdakı səlahiyyətlərə malikdir:

2.1.1. Şirkətin audit siyasətini və strategiyasını müəyyən etmək;

2.1.2. Şirkətin idarəetmə orqanından (adını göstərməli) Komitənin öz funksiyalarını həyata keçirmək üçün bütün məlumatları almaq;

2.1.3. Daxili audit planlarını təsdiq etmək və audit qurumunun fəaliyyətinə nəzarəti həyata keçirmək;

2.1.4. Kənar auditorların nümayəndələri ilə görüşlər keçirmək;

2.1.5. Kənar auditorun onun müstəqilliyinə mənfi təsir göstərə biləcək amilləri nəzərdən keçirmək;

2.1.6. Kənar auditorun, audit və əlaqədar audit xidmətləri üzrə işlərinin həcminin, icra müddətlərinin və xidmət haqqının (qonorarının) müəyyənləşdirilməsi ilə bağlı Müşahidə şurasına (və ya müvafiq orqana) tövsiyələr vermək;

2.1.7. Kənar auditorun peşəkarlığını, müstəqilliyini və fəaliyyətini qiymətləndirmək və onun fəaliyyət nəticələrinin və müstəqilliyinin adekvatlığına dair öz rəyini daxil edən hesabatı Şirkətin Nizamnaməsi ilə müəyyən edilmiş müvafiq orqanlarına təqdim etmək. Bu cür hesabat Kənar Auditorun yenidən təyin olunmasına və ya müqaviləsinin dayandırılmasına və lazım gəldikdə, bu cür auditorun əvəz edilməsinə dair Komitənin təkliflərini əks etdirir. Hər hansı bir orqan (adını göstərməli) bütünlüklə Komitənin verdiyi qiymətlə və təkliflərlə razı olmadıqda, Komitənin hesabatı həmin orqandan da səlahiyyətli orqana (adını göstərməli) təqdim edilir və onun yiğincağının gündəliyinə daxil edilir;

2.1.8. Kənar auditin nəticəsi əsasında maliyyə hesabatlarına ediləcək dəqiqləşmələr və əlavələri nəzərdən keçirmək;

2.1.9. Şirkətin daxili auditorunun təyin olunması zamanı öz münasibətini bildirmək və onun işinə qiymət vermək;

2.1.10. Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair müvafiq orqanlara (adını göstərməli) təkliflər vermək;

2.1.11. Şirkətin fəaliyyəti ilə bağlı şirkətin müvafiq orqanlarının (adlarını göstərməli) qəbul etdiyi bütün qərarlarla tanış olmaq;

2.1.12. Şirkətin bütün daxili qaydaları və strategiyası ilə tanış olmaq;

2.1.13. Şirkətin fəaliyyəti ilə bağlı qanunvericiliyə, Şirkətin nizamnaməsinə və (əgər varsa) Şirkətin fəaliyyət sahəsini tənzimləyən orqanın normativ sənədləri tələblərinin yerinə yetirilməsini müvafiq orqandan (adını göstərməli) tələb etmək;

2.1.14. Daxili audit strukturunun rəhbərinin və işçilərinin işdən azad olması və ya dəyişdirilməsi barədə şirkətin müvafiq orqanı (adını göstərməli) qarşısında məsələ qaldırmaq;

2.1.15. Şirkətin illik hesabatına dair mülahizələrini bildirmək;

2.1.16. Şirkətin struktur bölmələri üzrə xüsusi audit yoxlamaları və təftişlər keçirilməsini sifariş vermək;

2.1.17. Şirkətin fəaliyyətinə və əməkdaşlara aid olan hər hansı məlumatlar üzrə sorğu vermək;

2.1.18. Şirkətin fəaliyyəti məqsədləri üçün ehtiyac olduqda müstəqil ekspertləri cəlb etməklə bağlı rəhbərlik qarşısında məsələ qaldırmaq;

2.1.19. Zəruri hallarda öz iclaslarına Şirkətin əməkdaşlarını, kənar və daxili auditorları və müstəqil ekspertləri dəvət etmək;

2.1.20. Şirkətin müvafiq orqanlarının (adlarını göstərməli) iclaslarında səs hüququna malik olmadan iştirak etmək;

2.1.21. Şirkətin müvafiq orqanlarının (adlarını göstərməli) növbədənkənar iclasının keçirilməsini tələb etmək;

2.1.22. Bu Əsasnamə və (əgər varsa) Şirkətin fəaliyyət sahəsini tənzimləyən orqanın normativ aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

2.2. Komitə Şirkətdə aşağıdakı hallarda Şirkətin fəaliyyət sahəsini tənzimləyən qanunvericiliyin, Şirkətin Nizamnaməsi və (əgər varsa) Şirkətin fəaliyyət sahəsini tənzimləyən orqanın normativ sənədlərinin tələblərinin yerinə yetirilməsi, habelə Şirkətdə mühasibat işinin vəziyyətinin yoxlanılmasını Daxili Audit Departamentindən (və ya digər Daxili audit qurumundan) tələb edə bilər:

2.2.1. Audit Komitəsinin tərtib etdiyi plan əsasında;

2.2.2. Səhmdarların (təsisçilərin) Ümumi Yığıncağının (və ya təsisçinin) tələbi əsasında;

2.2.3. 5%-dən çox paya malik olan səhmdarların tələbi əsasında (Şirkət Səhmdar Cəmiyyət olduqda);

2.2.4. Şirkətin müvafiq səlahiyyətli orqanının (adını göstərməli) tələbi əsasında;

2.2.5. Tənzimləyici orqanın (əgər varsa – adını göstərməklə) tələbi əsasında;

2.2.6. Kənar auditorun tələbi əsasında.

2.3. Komitə Şirkətin fəaliyyətinə nəzarət və monitorinqi həyata keçirən zaman aşağıdakı prinsiplərə riayət edir:

2.3.1. Şirkətin cari iş fəaliyyətinə maneçiliyin minimuma endirilməsi;

2.3.2. Lüzumsuz yoxlamaların aparılmaması;

2.3.3. Lüzumsuz məlumatların hazırlatdırılmaması və tələb edilməməsi.

**3. Komitənin vəzifələri**

3.1. Komitənin vəzifələri aşağıdakılardan ibarətdir:

3.1.1. Daxili və Kənar auditorlar tərəfindən irəli sürülmüş daxili nəzarət üzrə tövsiyələrin icraçılar tərəfindən icra olunub olunmamasına nəzarət etmək;

3.1.2. Mühüm maliyyə risklərinin cari sahələrinə və icra strukturları tərəfindən onların səmərəli idarə edilməsinə nəzarət etmək;

3.1.3. Maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edə biləcək hər hansı hüquqi məsələləri nəzərdən keçirmək;

3.1.4. Şirkətin illik və cari maliyyə hesabatlarının hazırlanma prosesinə və nəticələrinə nəzarət etmək;

3.1.5. Daxili Audit qurumunun fəaliyyətini tənzimləmək və onun fəaliyyətinə nəzarət etmək;

3.1.6. Daxili Audit qurumunun rəhbəri və əməkdaşlarının vəzifə təlimatlarını, şöbənin illik iş planı və proqramlarını, daxili audit hesabatlarını yoxlamaq, nəzarət sisteminin təkmilləşdirilməsi üzrə tövsiyələr vermək;

3.1.7. Daxili Audit qurumunun əməkdaşlarının fəaliyyətinin səmərəliliyini və peşə yararlığını nəzərdən keçirmək;

3.1.8. Daxili Auditorlar tərəfindən təqdim edilmiş mühüm nəticələrin və tövsiyyələrin müntəzəm əsasda müzakirəsini təmin etmək;

3.1.9. Şirkət tərəfindən qanun və normativ sənədlərə riayyət olunmasına nəzarət etmək;

3.1.10. Maliyyə hesabatlarının hazırlanması prosesində bütün qanun və tənzimləyici orqanın (əgər varsa) normativ aktlarının tələblərinə riayət olunmasına nəzarət etmək;

3.1.11. Tənzimləyici orqanlar tərəfindən aparılmış yoxlamaların nəticələrini nəzərdən keçirir və onların audit xidmətinin təkmilləşdirilməsi üzrə tövsiyələrini icra etmək;

3.1.12. Etik davranış qaydalarına (və ya digər sənədə – əgər varsa) riayət olunması üzrə nəzarət sisteminin işləməsinə nəzarət etmək;

3.1.13. Müntəzəm olaraq Komitənin fəaliyyəti haqqında (azı ildə bir dəfə) Səhmdarların (Təsisçilərin) Ümumi Yığıncağına hesabat vermək və müvafiq tövsiyələri təqdim etmək;

3.1.14. Daxili Audit, Kənar Auditorlar və Şirkətin müvafiq orqanları (adlarını göstərməli) arasında münasibətləri tənzimləmək;

3.1.15. Şirkətin ümumi fəaliyyətində mövcud olan və yarana biləcək risklər üzrə daim müvafiq orqanı (adını göstərməli) məlumatlandırmaq.

**4. Komitənin tərkibi və işinin təşkili**

4.1. Şirkətin Audit Komitəsi 3 (və ya sayı göstərilir) nəfərdən ibarətdir.

4.2. Komitənin üzvləri Səhmdarların (Təsisçilərin) Ümumi Yığıncağı tərəfindən 2 (və ya miqdarı göstərilir) ildən çox olmayan müddətə seçilirlər. Komitənin üzvləri təkrar seçilə bilərlər (və ya bilməzlər). Səhmdarların (Təsisçilərin) ümumi yığıncağı Komitə üzvlərindən birini Komitənin Sədri təyin edir.

4.3. Komitənin Sədri və üzvləri seçilərkən aşağıdakı tələblər götürülür:

-iqtisadi, biznes və ya hüquqi təhsilin olması;

- öz vəzifələrini yerinə yetirmək üçün lazımi peşəkar bacarığa və fərdi keyfiyyətlərə malik olması;

- komitənin ən azı bir üzvünün mühasibat və audit və ya aidiyyatlı maliyyə sahələrində mütəxəssis olması;

4.4. Müvafiq orqanların üzvləri (adları göstərilir) Komitənin işinə müdaxilə edə bilməzlər.

4.5. Aşağıdakı şəxslər Komitənin üzvləri ola bilməzlər:

4.5.1. Maliyyə vəziyyətinin pisləşməsi və prudensial tələbləri pozmaqla əlaqədar məcburi ləğv olunmuş, yaxud müflis elan edilmiş Şirkətdə ləğvetmə və ya iflas haqqında qərarın qəbul edildiyi tarixdən bir il əvvəl Şirkətin inzibatçısı işləmiş şəxslər;

4.5.2. Üç ildən az olmayan müddət ərzində başqası ilə əvəz edilməsi barədə tənzimləyici orqanın (əgər varsa) tələbi ilə hər hansı Şirkətin, filialın və ya şöbənin inzibatçısı vəzifəsindən azad edilmiş şəxs (işə bərpa olunması haqqında barəsində qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan şəxslər istisna olmaqla);

4.5.3. Məhkumluğu olan, keçmişdə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər, habelə barələrində mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərin istintaqına müddətin keçməsinə və ya amnistiyaya əsasən xitam verilməsi, müvafiq vəzifəni tutması və ya peşə fəaliyyəti ilə məşğul olması, üzərində məhkəmə qərarı ilə qadağa qoyulması, məhkəmə qaydasında müflis elan edilməsi faktları olan şəxslər;

4.5.4. Şirkətin inzibatçısı hüququndan qanunla məhrum edilmiş şəxslər;

4.5.5. Şirkətin digər idarəetmə orqanının üzvü olan şəxslər;

4.5.6. Şirkətdə digər vəzifə tutan şəxslər.

**5. Komitənin iclaslarının keçirilməsi və aparılması qaydaları**

5.1. Komitənin iclaslarına Komitənin Sədri sədrlik edir.

5.2. Komitənin üzvlərinin hamısının iştirak etdiyi iclas yetərsaylı hesab olunur və qərarlar açıq səsvermə ilə adi səs çoxluğu prinsipi ilə qəbul edilir.

5.3. Komitənin və onun üzvlərinin öz vəzifələrini başqalarına həvalə etmək hüququ yoxdur.

5.4. Komitənin iclası video və ya telefon konfransı vasitəsilə aparıla bilər. Komitənin iclasında video və ya telefon konfrans vasitəsilə iştirak etmiş Komitənin üzvü iclasda şəxsən iştirak etmiş sayılır.

5.5. Komitənin iclaslarında səsvermə 1 üzv - 1 səs prinsipi ilə həyata keçirilir. Səsvermə zamanı bitərəf qalmağa icazə verilmir. Səsvermə zamanı Komitə üzvlərinin səsləri bərabər paylandığı təqdirdə, Komitə Sədrinin səsi həlledicidir. İclasın nəticələri protokolla rəsmiləşdirilir.

5.6. Komitənin plan üzrə iclasları rübdə bir dəfədən az olmayaraq keçirilir. Komitənin növbədənkənar iclasları onun üzvlərindən birinin təşəbbüsü, Səhmdarların (Təsisçilərin) Ümumi Yığıncağının, mühüm iştirak payına malik səhmdarların (əgər şirkət səhmdar cəmiyyətdirsə), digər səlahiyyətli orqanın (adları göstərilir) müraciəti ilə çağırıla bilər.

5.7. Komitə iclaslarına çağırışlar Komitənin katibi tərəfindən edilir.

5.8. Komitə iclaslarından sonra 5 gündən gec olmayaraq katib tərəfindən protokol tərtib edilir. Protokola Komitə tərəfindən qəbul edilmiş sənədlər və müzakirə olunan məsələlər üzrə materiallar əlavə edilir.

5.9. Komitənin Sədri və üzvləri aşağıdakı hallarda Səhmdarların (Təsisçilərin) Ümumi Yığıncağı (və ya təsisçi tərəfindən – şirkətin bir təsisçisi olduqda) tərəfindən vaxtından əvvəl geri çağırılırlar:

5.9.1. Digər şirkətlərin idarəetmə orqanının üzvü olduqda və ya hər hansı bir vəzifə tutduqda;

5.9.2. Onlara həvalə olunmuş işlərin öhdəsindən gəlmədikdə;

5.9.3. Öz xahişləri ilə;

5.9.4. Qanunvericiliyin tələb etdiyi digər hallarda.

**6. Komitənin hesabatlığı**

6.1. Komitənin Səhmdarların (Təsisçilərin) Ümumi Yığıncağına təqdim etdiyi hesabatda aşağıdakı məsələlər açıqlanmalıdır:

6.1.1. Şirkətdə qanunvericiliyə riayət edilməsinin səviyyəsi;

6.1.2. Şirkətdən maliyyə uçotu və hesabatların hazırlanmasının səviyyəsi;

6.1.3. Auditor fəaliyyətinin ümumi qiymətləndirilməsi;

6.1.4. Şirkətdə risklərin idarə edilməsi və nəzarət sistemlərinin vəziyyətinin səviyyəsi;

6.1.5. Şirkətdə risklərin və nəzarət sistemlərinin, uçot və qanunvericiliyin təkmilləşdirilməsi barədə təkliflər;

6.1.6. Bu Əsasnamə üzrə Komitənin vəzifələrinə aid olan digər məsələlər.

6.2. Komitə müvafiq orqana (adını göstərməli) aşağıdakı hesabatları təqdim edir:

6.2.1. Qanunvericiliyin tələblərinə əməl edilməsi, aşkar olunmuş qanun pozuntuları haqqında məlumat və onların aradan qaldırılması üçün fəaliyyət planı;

6.2.2. Daxili nəzarətin vəziyyətinin yoxlanması barədə hesabat və onun səmərəliliyinin artırılması barədə tövsiyələr, habelə kənar audit hesabatı və rəhbərliyə verilən təkliflər daxil olmaqla, kənar audit ilə əlaqədar bütün yazışmalar;

6.2.3. Şirkətə, onunla əlaqədar şəxslərə təsir edə biləcək gözlənilən məhkəmə işi və ya cəlb edilmiş məhkəmə icraatı haqqında məlumat;

6.2.4. Şirkətə aid ola bilən hər hansı bir qanunverisilik aktı haqqında məlumat.

6.3. Komitə və onun Sədrinin qərar qəbuletmə səlahiyyətləri

6.3.1. Komitənin aşağıdakı məsələlər üzrə qərarqəbuletmə səlahiyyətləri vardır:

6.3.2. Daxili Audit qurumunun audit planını təsdiq etmək;

6.3.3. Növbədənkənar audit aparılması barədə qərarlar qəbul etmək;

6.3.4. Daxili Audit qurumunun və onun işçilərinin işdən kənarlaşdırılması üzrə müvafiq orqan (adını göstərməli) qarşısında vəsatət qaldırmaq;

6.3.5. Daxili Audit qurumunun Əsasnaməsini təsdiq etmək;

6.3.6. Səhmdarların (Təsisçilərin) Ümumi Yığıncağının ona vermiş olduğu səlahiyyət çərçivəsində digər qərarlar qəbul emək.

6.3.7. Komitənin qərarları onun iclaslarında bu Əsasnamənin 3.6-cı maddəsində göstərilən qaydada səsvermə yolu ilə qəbul edilir.

6.3.8. Komitə Sədrinin və ya onun ayrı-ayrı üzvlərinin Komitə adından təkbaşına qərarlar qəbul etməsinə və onun icra Şirkətin digər icra strukturlarından tələb etməyə yol verilmir.

6.3.9. Komitənin qərarları Daxili Audit qurumu üçün məcburidir və bu qərarlar mütləq yerinə yetirilməlidir. Daxili Audit qurumu Komitənin qərarlarının yerinə yetirilməsi üçün məsuliyyət daşıyır.

6.4. Komitənin Sədri aşağıdakı səlahiyyətlərə malikdir:

6.4.1. Komitənin iclaslarında qəbul olunmuş sənədləri təsdiq etmək;

6.4.2. Komitənin iclasını çağırmaq və iclasları idarə etmək;

6.4.3. Şirkəti ona verilmiş səlahiyyətlər daxilində səhmdarların adından təmsil etmək;

6.4.4. Daxili Audit qurumunun rəhbərinin və onun işçilərinin vəzifə təlimatlarını təsdiq etmək;

6.4.5. Komitə üzvlərinə bonus, mükafat verilməsi üzrə Səhmdarların (Təsisçilərin) Ümumi Yığıncağına təkliflər vermək;

6.4.6. Komitənin iclaslararası dövrdə Daxili Audit qurumunun fəaliyyətinə nəzarət etmək və tənzimləmək.

**7. Əsasnamənin təsdiqi, əlavə və dəyişikliklər edilməsi qaydaları.**

Komitənin Əsasnaməsi Şirkətin Müşahidə Şurasının (və ya digər səlahiyyətli orqanının) təqdimatı əsasında Səhmdarların Ümumi Yığıncağı (və ya digər səlahiyyətli orqanı) tərəfindən təsdiq edilir və ona əlavə və dəyişikliklər edilir.

# REKLAM PRAKTİKASININ KODEKSİ

Reklam fəaliyyətinin təşkilində və idarə edilməsində 1992-ci ildə Reklam İşçiləri Assosiasiyasının üzvlərinin yığıncağı tərəfindən qəbul edilmiş Beynəlxalq Reklam Praktikası Kodeksi müəyyən rol oynayır.

Kodeks reklamı satıcı ilə alıcı arasında ünsiyyət vasitəsi kimi nəzərdən keçirir və reklam prosesinin bütün işirakçılarını alıcılar və cəmiyyət qarşısında məsuliyyət amili, həm də biznesin və alıcıların maraqları arasında ədalətli balansın təmin edilməsi zəruriliyi kimi qəbul edir.

Reklam praktikası kodeksi, hər şeydən əvvəl, özünü idarətmə qabiliyyəti, yaxud şəxsi intizam alətidir. Lakin bununla o, müvafiq qanunlar çərçivəsində sorğu materialı qismində məhkəmə və arbitraj təcrübəsində istifadə edilmək üçün də nəzərdə tutulmuşdur. Kodeksin məqsədini, prinsiplərini və qaydalarını bölüşdürən hər hansı bir müəssisə və təşkilat orda göstərilən müddəalara öz razılığını bildirə və öz praktiki fəaliyyətində onu rəhbər kimi qəbul edə bilər.

Kodeks reklam prosesinin bütün iştirakçılarının: reklam vericilərinin, reklam məhsulunun iştirakçılarının, reklam iştirakçılarının və yayıcılarının rəhbər tutmalı olduqları etik standartları müəyyən edir.

Kodeksin məzmununun əsasında aşağıdakı reklam normaları durur: ədəb və ya əxlaq, düzlük və ya təmizlik, doğruluq və ya gerçəklik, müqayisə, sübut və dəlil, ləkələmə (qarayaxma), şəxsiyyətin hüquqlarının müdafiəsi, nüfuzdan istifadə etmə, təqlidetmə və ya yamsılama, reklam müraciətinin eyniləşdirilməsi, təhlükəsizliyin təmin edilməsi və s.



Ədəb və yə əxlaq norma kimi reklam müraciətində cəmiyyətdə qəbul edilən qaydaların əksinə gələn fikirlərin (müddəaların, iddiaların) və ya ixtiraların olmasını nəzərdə tutur.

Düzlük və ya təmizlik norma kimi onda təzahür olunur ki, reklam müraciəti alıcının etibarından sui-istifadə etməməli, qorxu, mövhumat hissi ilə oynamamalı, zorakılıq doğurmamalı, irqi, dini və ya cinsi əlamətlərə görə ayrı-seçkiliyi dəstəkləməməlidir.

Doğruluq və ya gerçəklik kodeksin ən mühüm normalarından biridir. Onun mahiyyəti ondan ibarətdir ki, reklam göndərişi xüsusilə əmtəənin (malın) təbiətinə, tərkibinə, buraxılışı müddətinə, keyfiyyətinə, mənşə ölkəsinə və istehlak xassələrinə, çatdırılmasına, mübadilə edilməsinə, qaytarılmasına, zəmanət şərtlərinə, təmirinə, müəllif hüquqlarına, mövcud qiymətlərinə və s. münasibətdə alıcını aldatmağa gətirib çıxaran hər hansı bir təsdiqi və təsvirləri (şəkilləri) ehtiva etməlidir.

Reklamda elmi tədqiqatların, elmi terminlərin nəticələri təhrif olunmamalı, elmi jarqonlardan istifadə edilməməlidir.

Müqayisə reklam müraciətində aldatmağa gətirib çıxarmamalıdır. O, düzgün, yaxud haqlı rəqabət prinsiplərinə uyğun gəlməlidir. Əmtəələrin məsuliyyətlərinin müqayisəsi düzgün olmalı və sübutedici faktlara əsaslanmalıdır.

Sübut və dəlil reklam müraciətində şübhəli olmamalı və ya belə sübut və dəlilləri verən şəxsin ixtisası və təcrübəsi ilə əlaqəli olmamalıdır. Köhnəlmiş sübutlardan və dəlillərdən istifadə edilməməlidir.

Reklam müraciəti birbaşa və ya dolayı yolla nifrət, istehza, masqara, ələ salma, lağa qoyma, rişxənd və bu kimi hadisələri bildirərək hər hansı bir firmanı, sənaye və ya kommersiya fəaliyyətini, yaxud ixtisaslı ləkələməməlidir.

Şəxsiyyətin hüquqlarının müdafiəsi onda təzahür olunur ki, reklam müraciətində insanların ilkin razılığı olmadan onların şəxsi həyatı və ya ictimai fəaliyyəti təsvir edilməməli, hər hansı bir şəxsin xüsusi mülkiyyətinin razılıq olmadan təsvir edilməsinə istinad edilməməlidir.

Təqlid etmə və ya yamsılama norma kimi onu nəzərdə tutur ki, reklam müraciəti digər reklam müraciətinin ümumi kompozisiyasını, mətnini, sloqanını, təsvirini, musiqisini, səs effektlərini təqlid etməməli, yaxud yamsılamamalı, yanlışlığa, qarışıqlığa, dolaşıqlığa gətirib çıxarmamalıdır. Reklam vericisi bir və ya bir neçə xarici ölkədə reklam kompaniyasını aparan zaman digər reklam vericisi səmərəli vaxt ərzində onu təqlid etməmək və ya yamsılamaq üçün bu ölkələrdə oxşar tədbirləri həyata keçirməlidir.

Reklam müraciəti hansı formada olmasından və ya hər hansı bir kütləvi informasiya vasitəsində yayılmasından asılı olmayaraq, dürüst və dəqiq ayrılmalıdır. Məhz bunda reklam müraciətinin eyniləşdirilməsi kimi norma təzahür edir.

Təhlükəsizliyin təmin edilməsi reklam müraciətində onda təzahür olunur ki, o, hər hansı bir əsas olmadan təhlükəli vəziyyət, fəaliyyət, təmzinlər, adətlər, təhlükəli və təzlükəsiz vasitələrlə etinasızlığı nümayiş etdirən təsvirləri özündə əks etdirmir. Birinci növbədə bu uşaqlara və gənclərə yönəlmiş reklam müraciətlərinə aiddir. Reklam müraciəti uşaqların inanmasını və ya gənclərin həyat təcrübəsinin kifayət etməməsini, yaxud onların inanma hisslərini istismar etməməli, mənəvi və ya fiziki travmaya, əsəb sarsıntılarına gətirib çıxaran hər hansı fikirləri və təsvirləri ehtiva etməməlidir.

(*davamı var*)

*BDU-nun dosenti*
*F.M.Qarayev*



# Müəssisələrə girmədən yoxlamalar başlayıb

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin strukturları və xidmətləri istehsal müəssisələrinə girmədən yoxlama aparmağa başlayıb.**

Bunu, Caspian European Club-un təşkil etdiyi biznes forumdan öncə jurnalistlərə Komitənin sədri Ramiz Həsənov deyib.

O deyib ki, Komitənin yoxlama aparan strukturları müəssisələrə girmədən, kənardan monitorinq həyata keçirirlər:

"Bizim dövlət nəzarəti xidmətinə müvafiq tapşırıq verilibdir. Bazarda monitorinq aparırıq. Müəssisəyə getmədən, müəssisənin məhsulunu bazardan alırıq, laboratoriyada analizlərini aparırıq. Problem çıxdıqda istehsalçı müəssisəyə tələbnamələr göndəririk. Gedib yoxlamadan. İdxal məhsuludursa, keyfiyyətsiz məhsulun idxalının dayandırılması barədə Gömrük Komitəsinə məktub yazırıq. Əgər istehsalçı yerli müəssisədirsə, həmin müəssisəyə məktub yazıb çatışmazlığı 1 ay ərzində düzəltməyi tələb edirik. Əks təqdirdə cərimə sanksiyaları tətbiq edirik. Yəni, müəssisənin özünə girmirik, kənardan monitorinq həyata keçiririk".

Ramiz Həsənov qeyd edib ki, cənab Prezidentin Sərəncamından sonra planlı yoxlamaların hamısı dayandırılıb:

"Hazırda yoxlamaların mexanizmi üzərində işləyirik, hazır olduqda hökumətə təqdim edəcəyik. Hər bir sivil ölkədə nəzarətin qaydaları var, bu bizdə də olmalıdır. Çox, təəssüflər olsun ki, indiyədək bizdə başqa bir formada nəzarət həyata keçirilirdi.

Mən planlı yoxlamaların əleyhinəyəm. Müəssisəyə getməyə ehtiyac yoxdur. Dediyim kimi bazar ilə vəziyyəti müəyyən etmək lazımdır, məhsul keyfiyyətlidir, yoxsa deyil".

# "ATATRAVEL" MMC-nin yeni il turları

Yeni il ərəfəsində "AtaTravel" MMC Yeni il turlarını təqdim edir. Turizm agentliyi bütün arzu edənlərə münasib qiymətlərlə "Yeni il Parisdə", "Yeni il Tokioda", "Yeni il Praqada" turlarını təklif edir.

Həmçinin, ekzotika həvəskarlarına Yeni ili Malayziya və Sinqapurda qarşılamaq təklif olunur. Dənizin sahilə çırpınan dalğaları, bayram əhval-ruhiyyəsi, ləziz menyu, şən rəqslər, atəşfəşanlıq Yeni il gecəsini unudulmaz edəcək.

"AtaTravel" MMC-nin baş direktoru Vüsal Əliyev qeyd etdi ki, "Biz həmişə keyfiyyətli və geniş xidmətlər təklif etməyə çalışırıq. Bu zaman həmçinin, müştərilərimizin arzularını da nəzərə almaqla, eksklüziv təkliflər işləyib hazırlayırıq".

"AtaTravel" MMC-yə (994 12) 493-05-01 telefon nömrəsinə zəng edərək geniş məlumat almaq mümkündür. "AtaTravel" MMC turizm agentliyi 2011-ci ildə təsis edilib və "AtaHolding" ASC-nin törəmə şirkətlərindən biridir. "AtaTravel" turizm agentliyi dünyanın istənilən nöqtəsinə səfərlər üzrə çoxsaylı xidmətlər təklif edir.

# Azərbaycanda uşaqların internet təhlükəsizliyi məsələsi yenidən gündəmə gətirilir

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi uşaqların internet təhlükəsizliyinin qorunması üçün təkliflər hazırlamağa başlayıb.

Bunu Trend-ə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva deyib.

Komitə sədrinin müavini qeyd edib ki, uşaqların internet təhlükəsizliyinin qorunması üçün internet klublarda onlar üçün ayrıca filterləşdirilmiş proqramları olan kömpyuterlərin istifadəyə verilməsi, klublarda müşahidə kameralarının qurulması, evlərdə uşaqların filterləşdirilmiş proqramları olan kompyuterlərdən istifadə edilməsi daha yaxşı olar.

A.Sofiyeva bildirib ki, məktəblərdə artıq proqramlar filterləşdirilib və orada şagirdlər lazım olmayan saytlara daxil ola bilmirlər. A.Sofiyeva valideynlərə də tövsiyə edir ki, onlar evlərdə filterləşdirilmiş proqramlardan istifadə etsinlər. Bununla yanaşı, valideynlər evdə uşaqların istifadə etdiyi kompyuterləri otaq qapısı ilə üzbəüz istiqamətdə yerləşdirsənlər: "Bu halda onlar otaq qapısı açılanda birbaşa kompyuteri görə bilərlər. Daha yaxşı olar ki, kompüter böyüklərin də olduğu əsas istifadə otağında olsun və daim nəzarətdə saxlanılsın".

Hələlik bu məsələlərlə bağlı komitə tərəfindən müzakirələrin aparıldığını deyən A.Sofiyeva qeyd edib ki, dünyada informasiya texnologiyalarının inkişafı ailələrə də müəyyən problemlər gətirir.

Onun sözlərinə görə, bu gün istər narkomaniya, istərsə də insan alveri istiqamətində müəyyən cinayətkar qruplar məhz internet vasitəsilə uşaqları öz qurbanlarına çevirirlər.

A.Sofiyeva qeyd edib ki, uşaqların internet təhlükəsizliyinin təminatı baxımından əsas məsuliyyət valideynlərin üzərinə düşür: "Bu gün bizdə ən böyük problem odur ki, assosiallaşma prosesi gedir. Əvvəllər valideynlər uşaqlarla daha çox ünsiyyətdə olurdu. Ailədə uşaqlara diqqətin müəyyən qədər az olması çox böyük faciələrə gətirib çıxarır. Təəssüflər olsun ki, bu gün bu məsələlərdə müəyyən boşluq olduğundan uşaqlar onları maraqlandıran suallara cavabları sosial şəbəkələrdən tapırlar. Cinayətkar qruplar da məhz bu boşluqdan istifadə edərək uşaqları öz qruplarına cəlb edirlər. Buna görə də bu məsələdə ən vacib məsələ valideynlərin gözüaçıq olmasıdır".

# Bakcell Ordubadda yeni Satış və Xidmət Mərkəzi açıb

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti öz xidmət və məhsullarını abunəçilərinə daha yaxın etmək məqsədilə regionlarda satış və xidmət mərkəzlərinin şəbəkəsini genişləndirməyə davam edir.

Bakcell-dən verilən məlumata görə, Şirkət Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində yeni konsept və dizaynda olan Satış və Xidmət Mərkəzinin açılışını edib. Ordubad şəhəri, Heydər Əliyev küçəsi 35 ünvanında yerləşən yeni məntəqədə abunəçilərə müxtəlif çeşiddə xidmətlər təqdim olunur. "İndi Ordubad sakinləri Bakcell şirkətinin təqdim etdiyi məhsul və xidmətlərdən daha asanlıqla faydalana biləcəklər. Azərbaycanda ən geniş əhatə dairəsi olan və ən etibarlı şəbəkəyə malik Bakcell şirkəti öz xidmətlərinin abunəçilərə daha əlçatan olması üçün satış və xidmət mərkəzlərinin şəbəkəsini genişləndirməyə davam edəcək", - deyə Bakcell şirkətinin pərakəndə satış və distribusiya departamentinin rəhbəri Paşa Paşayev bildirib.

Bakcell şirkəti 250-yə yaxın pərakəndə satış nöqtəsi və paytaxt və bölgələrdə fəaliyyət göstərən 26 Müştəri Xidməti Mərkəzində öz abunəçilərinə ən üstün müştəri xidməti göstərir.

## «Azər-Asiya» ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!

«Azər-Asiya» ASC səhmdarlarının növbəti ümumi yığıncağı 16 dekabr 2015-ci il saat 11.00-da Bakı Şəhəri İ.Dadaşov küç. 260 ünvanında keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

- *cəmiyyətin ləğv edilməsi*
- *cəmiyyətin borcları və tələbləri barədə*
- *digər məsələlər.*

Ümumi yığıncaqda səhmdarların etibarnamə üzrə nümayəndələri şəxsiyyəti təsdiq edən sənədlə iştirak edə bilərlər.

**Əlaqə telefonu: (012) 561 25 88**
**Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, İbrahimpaşa Dadaşov küçəsi**

İDEAL DİZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar



Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

## ETİBARSIZDIR

**Yasamal Rayon Dövlət Yol Polisi İdarəsi tərəfindən Ələsgərov Namiq Sərhəd oğluna verilmiş sürücülük vəsiqəsi itdiyinə görə etibarsız sayılır.**

Akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı Əli Məsimliyə qardaşı
**TELMAN MƏSİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə Milli Məclisin deputatı Hüseynbala Mirələmova qardaşı
**ƏLİRZA MİRƏLƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Milli Məclisin deputatı Əli Məsimliyə qardaşı
**TELMAN MƏSİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Milli Məclisin deputatı Hüseynbala Mirələmova qardaşı
**ƏLİRZA MİRƏLƏMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN**

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
*Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Ədalət Muradov, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Cahangir Qocayev.*

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 (fax)
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Zaman-Azər" MMC firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3400